HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 19 (709) ▪ 21 may 2014 www.vergiler.az Qiymәti: 40 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasına səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Vyetnam Sosialist Respublikasına dövlət səfərinə gəlmişdir. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva Hanoyda Milli Qəhrəman və Şəhid Monumentini, həmçinin Vyetnamın sabiq Prezidenti Ho Şi Minin məvzoleyini ziyarət etmişlər.*



Mayın 19-da Vyetnam Sosialist Respublikasının Prezident sarayında Prezident İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur. Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanqın məhdud tərkibdə görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanmış, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilmişdir.

Dövlət başçılarının geniş tərkibdə keçirilən görüşündə Azərbaycan ilə Vyetnam arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlarda əməkdaşlıq, energetika, elm, təhsil, turizm, investisiyaların qoyulması və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Danışıqlar başa çatdıqdan sonra Azərbaycan-Vyetnam sənədlərinin imzalanması mərasimi olmuşdur. «Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki əməkdaşlıq haqqında Saziş» və «Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya» sənədi imzalanmışdır.

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra hər iki prezident mətbuata bəyanatlarla çıxış etmişlər. Prezident Truonq Tan Sanq ölkələr arasında siyasi, ticari-iqtisadi və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanların olduğunu bildirmişdir: «Tərəflər bu müsbət meyilli fəaliyyəti davam etdirməli, bütün sahələrdə, xüsusən də yüksək səviyyədə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin sayını artırmalı, əvvəllər imzalanmış sazişləri, həmçinin bir qədər əvvəl əməkdaşlıq barədə imzalanmış vacib sənədləri səmərəli həyata keçirməlidirlər. Biz cənab Prezidentlə Vyetnam-Azərbaycan əlaqələrini, xüsusən də ticari-iqtisadi və investisiya sahələrində inkişaf üzrə tədbirləri müzakirə etdik və razılaşdırdıq. Belə qənaətə gəldik ki, tərəflər güclü istiqamətləri inkişaf etdirməli, eyni zamanda, əmtəə mübadiləsinin artırılması, o cümlədən neft-qaz sahəsini prioritet, strateji və uzunmüddətli istiqamət hesab edərək fəal addımlar atmalıdırlar. Azərbaycan və Vyetnam informasiya mübadiləsi, birbaşa əlaqələrin qurulması və səmərəli əməkdaşlıq formalarının axtarışı sahələrində hər iki ölkənin biznes dairələrinə kömək edəcəkdir. Vyetnam bank işi, daşınmaz əmlak, turizm, yüngül sənaye kimi perspektivli sahələrə investisiya qoymaq üçün azərbaycanlı sahibkarlara əlverişli şərait yaratmağa hazırdır».

Prezident İlham Əliyev bəyanatla çıxış edərək bildirmişdir ki, Azərbaycan Vyetnamla əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir: «Keçən il Vyetnamda Azərbaycan səfirliyi açılmışdır. Bu, ikitərəfli münasibətlərimizin inkişafında öz müsbət rolunu oynayır. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Bu gün söhbət əsnasında qərara gəldik ki, bundan sonra da üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik». Regional təhlükəsizlik barədə danışan dövlətimizin başçısı Dağlıq Qarabağ münaqişəsi haqqında geniş məlumat vermişdir. Bildirmişdir ki, iyirmi ildən çoxdur ki, Ermənistan Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı və ətraf 7 bölgəni işğal altında saxlayır: «Bu işğal nəticəsində bir milyon azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasına dair bəyanat vardır. Ancaq buna baxmayaraq, Ermənistan buna məhəl qoymur və torpaqlarımızı işğal altında saxlamaqda davam edir. Bu münaqişə bölgə üçün ən böyük təhlükədir və ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır».

Azərbaycan Prezidenti Vyetnamla ikitərəfli iqtisadi əlaqələrdən də danışmış, iki ölkə arasında ticarət dövriyyəsinin 400 milyon dollara çatdığını vurğulamışdır. Qeyd olunmuşdur ki, tərəflər neft-qaz və digər sektorlara qarşılıqlı investisiyaların qoyuluşu ilə bağlı razılığa gəlmişlər.

Prezident İlham Əliyev Hanoyda ölkəmizin ali təhsil müəssisələrində təhsil almış vyetnamlı məzunlarla da görüşmüş, bu münasibətlə təşkil olunmuş tədbirdə çıxış etmişdir. Dövlətimizin başçısı bildirmişdir ki, Azərbaycan xalqı Vyetnama həmişə böyük sevgi və rəğbətlə yanaşıb. Azərbaycanla Vyetnam arasında tarixi dostluq vardır: «Azərbaycanın ümummilli lideri Heydər Əliyev Sovet İttifaqı nümayəndə heyətinin tərkibində bu ölkədə səfərdə olub. 1959-cu ildə isə Vyetnam xalqının böyük oğlu, Prezident Ho Şi Min Azərbaycanda səfərdə olub. Bu tarixi faktlar bizim münasibətlərimizi möhkəmləndirir. Biz bu faktlarla irəli addımlayırıq. Tarixsiz nə bu günümüz, nə də gələcəyimiz ola bilər». Qeyd olunmuşdur ki, iki mindən çox vyetnamlı vaxtilə Azərbaycanın ali təhsil müəssisələrində hazırlıq keçib və təhsil alıb. Onların əksəriyyəti Neft-Kimya İnstitutunda oxuyublar. Buna görə də Azərbaycanda neft-qaz əməliyyatları ənənələrinə yaxşı bələddirlər. Prezident İlham Əliyev vaxtilə Azərbaycanda təhsil almış Vyetnam vətəndaşlarının ölkələrimiz arasında münasibətlərin inkişafında xüsusi rol oynadığını qeyd etmiş, Azərbaycan parlamentində Vyetnam ilə dostluq qrupunun fəaliyyət göstərdiyini, Vyetnamda Azərbaycan səfirliyinin açıldığını və bütün bunların ikitərəfli əməkdaşlığın genişlənməsinə imkan yaratdığını bildirmişdir. Dövlətimizin başçısı təhsil sahəsində mövcud olan ənənənin davam etdirilməsinin vacibliyinə toxunmuş və Bakıda Vyetnam-Azərbaycan dostluğu forumunun keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Bu forum çərçivəsində də Azərbaycanın ali məktəblərinin vyetnamlı məzunlarının forumunu təşkil etmək mümkündür. Eyni zamanda, Azərbaycanın ali təhsil ocaqlarının məzunları olan vyetnamlıların əlaqələndirmə komissiyasının xətti ilə Azərbaycan-Vyetnam dostluq cəmiyyətinin də yaradılması təşəbbüsü də irəli sürülmüşdür.

Azərbaycanda təhsil alan vyetnamlılar adından çıxış edən Vyetnam Sosialist Respublikasının Milli Yığıncağının sədr müavini Uonq Tyu Lıu bu təşəbbüsləri dəstəklədiklərini, hər iki tərəf üçün humanitar əməkdaşlığa, dostluğa töhfə verəcəyini diqqətə çatdırmışdır.

Azərbaycan Prezidenti Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının sədri Nquyen Sinh Hanq, Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının baş katibi Nquyen Phu Tronq və Vyetnam Sosialist Respublikasının Baş naziri Nquyen Tan Danq ilə də görüşmüşdür. Görüşlərdə hazırkı səfərin ikitərəfli əlaqələrin yeni inkişaf səviyyəsinə çatmasında böyük əhəmiyyət daşıdığı bildirilmişdir. Azərbaycan ilə Vyetnam arasında beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq qurulduğu, iqtisadi əlaqələrimizin daha da inkişaf etdirilməsi, xüsusilə də investisiyaların qoyulması üçün yaxşı potensialın olduğu vurğulanmışdır.

Həmin gün Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanq və xanımı Mai Thi Hanh tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilmişdir.

***

Vyetnam Sosialist Respublikasına dövlət səfərini başa vuran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 4-cü Zirvə Toplantısında iştirak etmək üçün mayın 19-da Çin Xalq Respublikasına işgüzar səfərə gəlmişdir. Şanxayın «Pudong Beynəlxalq Aeroportunda dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Çinin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılamışlar.

# «Şamaxı Palace Platinum By Rixos» otel kompleksinin açılışı olmuşdur

*Mayın 14-də Şamaxı rayonunda «Şamaxı Palace Platinum By Rixos» otel kompleksinin açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*



Dövlətimizin başçısına məlumat verilmişdir ki, 43 min 370 kvadratmetr ərazidə inşa olunan oteldə yüksək keyfiyyətli müxtəlif xidmətlər göstəriləcəkdir. Otel kompleksi maraqlı memarlıq üslubunda inşa edilmişdir. Avanqard və klassik arxitektura elementlərinin sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında orijinal mebel və aksessuarlardan istifadə olunmuşdur.

Prezidentin diqqətinə çatdırılmışdır ki, oteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçmişdir və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Onlar otelin istənilən xidmət sahəsində qonaqlara yüksək səviyyəli qulluğun göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunmuşlar. Otel kompleksində müxtəlif toplantı və konfransların keçirilməsi üçün geniş imkanları olan 200 nəfərlik konfrans zalı, müasir restoranlar şəbəkəsi də fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaqdır.

Prezident İlham Əliyev otel nömrələri ilə tanış olmuşdur. Dövlətimizin başçısına bildirilmişdir ki, oteldə müxtəlif kateqoriyadan olan nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Bütün bunlar sübut edir ki, paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi bu sahənin inkişafına göstərilən diqqətin nəticəsidir. «Şamaxı Palace Platinum By Rixos» otelində yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir. Oteldə uşaqların da istirahətinin təşkili üçün lazımi şərait yaradılmış, müxtəlif əyləncə və idman sahələri qurulmuşdur. Oteldə qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Təklif olunan bəzi xidmət sahələri pulsuzdur. Burada quraşdırılan müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır.

«Şamaxı Palace Platinum By Rixos» otelinin ərazisində geniş tikinti-quruculuq işləri də həyata keçirilmişdir. Tamaşaların və müxtəlif əyləncə proqramlarının təşkil olunması üçün 200 tamaşaçı yerlik amfiteatr yaradılmışdır. Bundan əlavə, ərazidəki tennis, futbol, basketbol, voleybol, mini qolf meydançalarında hər cür şərait vardır. Otelin təqdim etdiyi xidmətlərə təbiət qoynuna gəzintilərin təşkil olunması, idmanın dağ velosipedi növü üzrə xidmətlərin göstərilməsi də daxildir.

Komplekslə tanışlıqdan sonra kollektivlə görüşən dövlətimizin başçısı «Şamaxı Palace» otelinin açılışını gözəl hadisə adlandırmış, burada ən yüksək standartların tətbiq edildiyini diqqətə çatdırmışdır.

2 Müsabiqə qalibləri mükafatlandırılmışdır

3 İşləyən əhalinin hüquqlarının müdafiəsinə yönəlmiş şəffaf sistem yaradılır

4 «Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi» yaradılır

5 Dünya Bankının Azərbaycanla əlaqələri genişlənir

# Müsabiqə qalibləri mükafatlandırılmışdır

*«Azərbaycanın vergi jurnalı»nın ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibəti ilə magistrantlar arasında keçirdiyi «Vergitutmada müasir meyillər: dünya təcrübəsi və Azərbaycanda tətbiqi imkanları» mövzusunda referat müsabiqəsinə mayın 20-də yekun vurulmuşdur.*

Jurnalın baş redaktoru Elşən Hacızadə bildirmişdir ki, müsabiqənin təşkilində məqsəd ölkədə və xaricdə iqtisadiyyat üzrə magistr pilləsində ali təhsil alan gəncləri Azərbaycanın vergi sistemində aparılan islahatlar və tətbiq edilən yeniliklərlə bağlı elmi-nəzəri araşdırmalara cəlb etmək, vergilər sahəsində elmi tədqiqatları stimullaşdırmaq, vergi maarifçiliyini genişləndirməkdir. Xarici ölkələrdən iqtisadi yönümlü ali məktəblərin də cəlb olunduğu müsabiqəyə ABŞ, Türkiyə və Azərbaycanın müxtəlif ali məktəblərində təhsil alan magistrantlardan 24 iş təqdim edilmişdir.



Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri Akif Musayev qeyd etmişdir ki, belə müsabiqələrin təşkili gənclərdə elmi tədqiqatlara marağın gücləndirilməsinə, onların vergitutma sahəsində innovativ yenilikləri dərindən mənimsəmələrinə yardımçı olur.

Azərbaycan Universitetinin kafedra müdiri, dosent Səkinəxanım Hacıyeva, Azərbaycan Dövlət Neft Akademiyasının professoru Qəzənfər Süleymanov və başqaları müsabiqənin magistrantların elmi kadr kimi formalaşmaları, cəmiyyətdə vergi maarifçiliyi işinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışlar.

Sonra müsabiqənin nəticələri açıqlanmışdır. Münsiflər heyətinin qərarı ilə ABŞ-ın Seton Hall Universitetinin magistrantı Maykl L.Koler birinci yerə, Azərbaycan Universitetinin magistrantı Orxan Hüseynov və Türkiyə Respublikasının Hacettepe Universitetinin magistrantı Göze Öztürk ikinci yerə, Qırğızıstan-Türkiyə Manas Universitetinin magistrantı Gülnaz Markisova və Azərbaycan Dövlət Neft Akademiyasının magistrantı Leyla Abdullayeva üçüncü yerə layiq görülmüşlər. Müsabiqə qaliblərinə fəxri diplom və qiymətli hədiyyələr təqdim edilmişdir.

Tədbirdə müsabiqənin qalibi olmuş xarici ölkə universitetlərinin magistrlarının videomüraciətləri nümayiş etdirilmişdir. Birinci yerin sahibi Maykl L.Koler demişdir ki, «Azərbaycanın vergi jurnalı»nın təşkil etdiyi referat müsabiqəsi Azərbaycanın Vergilər Nazirliyinin elmi biliklərin inkişafında maraqlı olduğunu göstərir. Öz elmi işi haqqında qısa məlumat verən magistrant müsabiqədə yüksək yerə layiq görüldüyü üçün münsiflər heyətinə təşəkkürünü bildirmiş, gələcəkdə də bu cür tədbirlərdə fəal iştirak edəcəyini vurğulamışdır.

Qırğızıstan-Türkiyə Manas Universitetinin magistrantı Gülnaz Markisova bildirmişdir ki, belə müsabiqələrin keçirilməsi gənc tədqiqatçıların özlərini elmi cəhətdən təsdiqləmələrinə meydan açır.

Azərbaycan Universitetinin magistrantı Orxan Hüseynov Vergilər Nazirliyinin ayrı-ayrı strukturları tərəfindən vergilər mövzusunda təşkil olunan olimpiada və müsabiqələrin gənclərin maarifləndirilməsi və kadr kimi formalaşdırılması baxımından müstəsna əhəmiyyətini diqqətə çəkmişdir.

Azərbaycan Dövlət Neft Akademiyasının magistrantı Leyla Abdullayevanın sözlərinə görə, bu cür tədbirlər gənc tədqiqatçılar tərəfindən maraqla qarşılanır və onları dərin elmi araşdırmalara həvəsləndirir.

# Qanunu pozanlara qarşı ciddi tədbirlər görülür

*May ayının 13-də Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən «Azinterval» MMC-yə məxsus avtomobillər üçün ehtiyat hissələrin pərakəndə satışı mağazasında əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir.*

Vergi ödəyicisinin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən onun 36 min 250 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, bu barədə ona aprel ayının 11-də bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi əmlakın siyahıya alınması haqqında qərar çıxarılmış və mağazadakı 62 min 280 manatlıq avtomobil mühərriki yağları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Həmin gün Səbail rayonunda «Travelers Coffee Limited» şirkətinin Azərbaycanda fəaliyyət göstərən «Travelers Coffee» kafesində də əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir. Müəssisənin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən onun 14 min 647 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilmiş, borcun bir hissəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada ödənilmiş, qalan hissəsinin ödənilməsini təmin etmək üçün isə kafedəki 5 min 725 manat məbləğində mebel və mətbəx ləvazimatları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Vergi Məcəlləsinin 90-cı maddəsinə əsasən, Vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilməzsə, vergi orqanı tərəfindən siyahıya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət olunacaqdır.

# IOTA-nın 11-ci Təlim Forumu keçirilmişdir

May ayının 7-9 tarixlərində Makedoniya Respublikasının paytaxtı Skopye şəhərində baş tutan tədbirin məqsədi vergi administrasiyaları tərəfindən aparılan təlim-tədris proseslərinin nəzərdən keçirilməsi, effektiv təhsilə və inkişafa doğru aparan təlim metodları və yanaşmaları təhlil etmək olmuşdur.

Tədbirdə iştirak edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov nazirliyin tədris konsepsiyasına əsaslanan təlim prosesinin təşkili, vergi orqanları əməkdaşları üçün fasiləsiz, sistemli, səmərəli və beynəlxalq təcrübəyə əsaslanan keyfiyyətli təhsilin təmin edilməsi üçün təşkil olunan kurslar və funksional sahələr üzrə qısamüddətli təlimlər, təlimçilərin həvəsləndirilməsi, Vergilər Nazirliyi yanında Tədris Metodiki Şuranın, o cümlədən Tədris Mərkəzinin fəaliyyəti haqqında təqdimat etmişdir.

# «Asan İmza»dan əlverişli tarif ayı

*«Asan İmza» mobil elektron imza xidməti üçün tariflərin endirilməsi ilə bağlı yeni kampaniya həyata keçirilir.*

Elektron xidmətlərdə sadə və təhlükəsiz mobil autentifikasiya və mobil elektron imza olan «Asan İmza»nın kütləvi istifadəsinin stimullaşdırılması məqsədi ilə Vergilər Nazirliyinin təşəbbüsü ilə Azərbaycanın bütün mobil operatorları «Asan İmza» mobil elektron imza xidməti üçün qiymətlərin endirilməsi kampaniyasına başlayıblar. Kampaniya 16 may 2014-cü il tarixdən etibarən bir ay ərzində qüvvədə olacaq. Artıq fiziki və hüquqi şəxslər, eləcə də dövlət qulluqçuları «Asan İmza» mobil elektron imza xidmətini Azərbaycanın hər üç mobil operatorunun nümayəndəliklərindən vahid qiymətə - 18 AZN-ə (ƏDV daxil) əldə edə və 3 il müddətində ondan yararlana bilərlər. «Asan İmza» mobil elektron imza xidmətinin əldə edilməsindəki endirimlər fiziki şəxslər üçün 40%, hüquqi şəxslər üçün 90% və dövlət qulluqçuları üçün 80%-ə qədər təşkil edir.

Xüsusilə qeyd etmək lazımdır ki, hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, eləcə də dövlət qulluqçuları üçün «Asan İmza» mobil elektron imza sertifikatı əldə olunan zaman, əlavə olaraq, vətəndaşlar üçün nəzərdə tutulan şəxsi sertifikat da təqdim edilir.

Bundan əlavə, «Asan İmza» mobil elektron imza istifadəçisi bir neçə hüquqi şəxsi təmsil etdikdə, bütün hüquqi şəxslər üzrə bir «Asan İmza» SIM kartına sahib olması kifayət edir.

Onu da qeyd etmək lazımdır ki, «Asan İmza» mobil elektron imza Azərbaycanda mövcud qanunvericiliyin bütün tələblərinə tam uyğun gələn yeganə mobil elektron imzadır.

Hal-hazırda «Asan İmza» mobil elektron imza istifadəçiləri üçün Elektron Hökumət portalında - www.e-gov.az (320-yə yaxın xidmət), Vergilər Nazirliyinin elektron xidmətlər portalında - www.e-taxes.gov.az (50-yə yaxın xidmət), Hesab.az internet-ödəniş portalında və digər elektron xidmət portallarında çoxsaylı xidmətlər mövcuddur. Vergilər Nazirliyi tərəfindən təqdim olunan fiziki şəxslərin «Asan İmza» vasitəsi ilə cəmi 5 dəqiqə ərzində fərdi sahibkar kimi onlayn qeydiyyatı imkanı istifadəçilər arasında xüsusi populyarlıq qazanmışdır.

Yeni istifadəçilərə yeni tarif üzrə «Asan İmza» mobil elektron imzanı əldə etmələri üçün tələsmək məsləhət görülür, çünki iyun ayından etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək müqavilələrinin elektron informasiya sistemində «Asan İmza»nın tətbiqinə başlayır. Əmək müqavilələrinin elektron sisteminin tətbiqi qaydaları qanunsuz məşğulluqla mübarizə çərçivəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birlikdə işlənib hazırlanmışdır. Əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin elektron qaydada qeydiyyata alınması məqsədi ilə «Asan İmza» vasitəsi ilə bütün hüquqi şəxslər, o cümlədən fərdi sahibkarlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vahid elektron bazasına əmək müqaviləsi bildirişini daxil edəcəklər. Əmək müqavilələrinin vahid elektron bazasının tətbiqi nəticəsində işçilər üçün iş yeri və əməkhaqqı ilə bağlı arayışların alınması asanlaşacaqdır. Arayışda faktiki əməkhaqqı ilə bağlı informasiya əks olunacaq ki, bu da onlayn kreditlərin verilişi prosedurunu əhəmiyyətli dərəcədə sadələşdirmiş olacaqdır.




«Asan İmza» mobil elektron imzanın bütün istifadəçiləri üçün həm dövlət, həm də özəl sektorda yeni xidmətlər təqdim ediləcəkdir. «Asan İmza» mobil elektron imzanın Azərbaycanın aparıcı banklarının internet və mobil bankçılıq sisteminə inteqrasiyası ilə bağlı işlər yekunlaşmaq üzrədir. «Asan İmza» mobil elektron imza istifadəçiləri birbaşa olaraq mobil telefondan bütün bank əməliyyatlarını (öz maliyyə vəsaitləri ilə bağlı qısa məlumatı almaq, hesab qalığını öyrənmək, istənilən bank müqavilələrini bağlamaq, bank kartının limitini müəyyənləşdirmək, kredit və lizinqlə bağlı ərizə vermək, sığortanı və s. rəsmiləşdirmə əməliyyatlarını) asan, sadə və təhlükəsiz şəkildə, istənilən yerdə həyata keçirə biləcəklər.

«Asan İmza» mobil elektron imza - telefonu rəqəmsal şəxsiyyət vəsiqəsi vasitəsi kimi istifadə etməyə imkan verən texnologiyadır. «Asan İmza» mobil elektron imza texnologiyasının əsas üstünlükləri smart kartın oxunması və proqram təminatı üçün əlavə qurğuların istifadəsinə ehtiyacın olmamasıdır. Xidmətin istifadəsi üçün autentifikasiya və elektron imzanın rəqəmsal açarlarının saxlanıldığı SIM karta əsaslanan mobil telefonun mövcudluğu kifayətdir.

Dövlət və yerli özünüidarəetmə orqanları əməkdaşlarına, hüquqi və fiziki şəxslərə «Asan İmza» mobil elektron imza üçün təkmil sertifikatlar Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən akkreditə edilmiş Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən təqdim edilir.

**Mayın 18-dən iyunun 18-dək Azərbaycanda «İnsan hüquqları aylığı»dır**

# Vergi ödəyicilərinin hüquqlarının müdafiəsi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə qəbul olunmuş «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı» və «Azərbaycan Respublikasında insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramı» çərçivəsində hər il may ayının 18-dən iyun ayının 18-dək ölkəmizdə «İnsan hüquqları aylığı» keçirilir. Bu proqramların icrası məqsədilə, digər dövlət strukturları ilə yanaşı, Vergilər Nazirliyi tərəfindən də zəruri tədbirlər həyata keçirilir.*

### Vergi ödəyiciləri üçün əlverişli hüquqi baza formalaşdırılmışdır

Son illər Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, onların hüquqlarının qorunmasına yönəlmişdir. Nəticədə Azərbaycanda vergi ödəyicilərinin hüquqlarına xidmət edən qanunvericilik bazası əsaslı şəkildə liberallaşmışdır. Məcəlləyə əlavə və dəyişikliklər vergi siyasətinin bu istiqamətlərini əhatə edir: vergi ödəyicilərinin hüquqlarının müdafiəsi; vergi ödəyicilərinin mənafelərinin qorunması; vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsi.

Qanunvericilikdə təsbit olunmuş əsas məqam vergi ödəyicilərinin məlumat almaq hüquqlarının qorunmasıdır. Onlar vergi orqanlarından qeydiyyat (uçot) yeri üzrə qüvvədə olan vergilər, onların ödənilmə qaydası və şərtlərini tənzimləyən normativ-hüquqi aktlar, öz hüquq və vəzifələri, vergi orqanlarının, onların vəzifəli şəxslərinin səlahiyyətləri haqqında yazılı və şifahi məlumatlar ala bilirlər. Ödəyicilərin vergi orqanlarından qanunvericiliyin tətbiq edilməsi məsələlərinə dair yazılı izahatlar, vergi qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada vergi güzəştlərindən istifadə etməklə bağlı məlumatlar əldə etmək hüquqları var. Bundan başqa, hər bir ödəyiciyə artıq ödənilmiş və ya tutulmuş verginin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək hüququ verilir. Vergi ödəyicisi vergi münasibətlərində bilavasitə və vergi qanunvericiliyində başqa hallar nəzərdə tutulmamışdırsa, öz qanuni və ya səlahiyyətli nümayəndəsi vasitəsi ilə iştirak edə bilər.

Vergi ödəyicilərinin qanunla müəyyən olunmuş hüququ var ki, vergi yoxlaması ilə bağlı tərtib edilən aktların (protokolların), qərarların surətini alsınlar, vergi orqanlarından və onların vəzifəli şəxslərindən vergi ödəyicisinə münasibətdə qanunvericiliyə riayət olunmasını tələb etsinlər.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq sazişinin bağlanması vergi ödəyicilərinin hüquqlarının müdafiəsini təmin etməklə yanaşı, vergi ödəyicisinin maliyyə itkilərinin minimallaşdırılmasına imkan verir. Bu saziş vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan mübahisələrin minimuma endirilməsi və onların həllinə çəkilən inzibatçılıq xərclərinin aşağı salınmasını təmin etmək imkanları yaradır.

### Vergi ödəyiciləri öz hüquqlarını bərpa etmək üçün geniş imkanlara malikdirlər

Vergi ödəyicilərinin məhkəməyə müraciət etmək məsələsində dünyanın əksər ölkələrində çox həssas münasibətlər formalaşmışdır. Bir çox hallarda vergi orqanlarına məhkəmələr vasitəsilə təzyiqlər göstərilir. Lakin bütün hallarda vergi ödəyicisi qanunvericilikdə müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət etmək hüququna malikdir. Ödəyici kommersiya (vergi) sirrinin qorunmasını, vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qeyri-qanuni aktları (qərarları) və hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş zərərin tam ödənilməsini tələb edə bilər.

Azərbaycanda vergi ödəyiciləri məhkəmələrə getməzdən öncə vergi orqanının yuxarı instansiyalarında öz hüquqlarını bərpa etmək üçün geniş imkanlara malikdirlər. Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurası məhz bu məqsədlərə xidmət edir. Şurada vergi ödəyicilərinin müraciətləri diqqətlə araşdırılır və yaranan mübahisənin maksimum şəkildə ədalətli həll olunması, vergi ödəyicisinin hüquqlarının qorunması üçün tədbirlər görülür.

Vergi ödəyicilərinin hüquqları və qanuni maraqlarının qorunması vergi orqanlarının və onların vəzifəli şəxslərinin səlahiyyətləri ilə təmin edilir. Qeyd edək ki, vergi orqanları və onların səlahiyyətli şəxsləri tərəfindən vergi ödəyicisinin hüquqlarının və qanuni maraqlarının təmin olunmaması və ya lazımınca təmin olunmaması müxtəlif qanunvericilik aktları ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

### Vergi ödəyicilərinin hüquqlarının qorunması Vergilər Nazirliyinin diqqət mərkəzindədir

İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova bu məsələlərə bağlı bildirmişdir ki, Vergilər Nazirliyinin vergi ödəyicilərinin hüquqlarının müdafiəsi ilə bağlı həyata keçirdiyi tədbirlər yüksək səviyyədə təşkil olunur. Onun sözlərinə görə, ildən-ilə öz işini daha da səmərəli təşkil edən vergi orqanlarının fəaliyyəti həm vergi ödəyiciləri, həm də hüquqşünaslar tərəfindən yüksək qiymətləndirilir: «İnsan hüquqları sahəsində təşkil edilən tədbirlərdə, o cümlədən ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində milli fəaliyyət proqramının həyata keçirilməsində Vergilər Nazirliyinin müstəsna rolu var. İnsan hüquqlarının, eləcə də vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində mühüm islahatlar həyata keçirilmişdir. Vergi sisteminin Avropa standartlarına uyğunlaşdırılması, texniki potensialının gücləndirilməsi, vergi auditinin inkişaf etdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının davamlı tətbiqi, vergi ödəyicilərinə xidmət sahələrinin, o cümlədən elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi vergi ödəyiciləri tərəfindən razılıqla qarşılanır».

**Rəşad SADIQOV**

# İşləyən əhalinin hüquqlarının müdafiəsinə yönəlmiş şəffaf sistem yaradılır



*Əmək Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ölkədə əmək bazarına nəzarətin gücləndirilməsinə, qeyri-leqal məşğulluğun aradan qaldırılmasına, habelə işçilərin hüquqlarının daha etibarlı qorunmasına xidmət edən yeni sistemin yaradılmasına başlamışdır. ƏƏSMN yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Fuad Əlizadə qəzetimizə müsahibəsində bu və digər məsələlər barədə fikirlərini bölüşmüşdür.*

***- Fuad müəllim, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 3 fevral tarixli «Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» Qanunun tətbiqi barədə» fərmanı ölkəmizdə qeyri-leqal məşğulluqla mübarizə və əmək bazarına nəzarətin gücləndirilməsi baxımından necə şərh edilə bilər?***

- Yeni sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Respublikası hüquqi cəmiyyət quruculuğu yolunda mühüm addımlar atan, əmək ehtiyatlarından səmərəli istifadənin təmin olunması, əmək bazarında mövcud münasibətlər sisteminin tam hüquqi müstəvidə qurulması, işçi hüquqlarının etibarlı müdafiəsi və qeyri-leqal məşğulluq hallarının leqallaşdırılması istiqamətində məqsədyönlü siyasət yürüdən bir ölkədir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli fərmanı bu sahədə mühüm addımların atılmasını şərtləndirməklə qeyri-leqal məşğulluqla mübarizənin gücləndirilməsi, bu sahədə çevik və səmərəli, müasir tələblərə uyğun iş üsullarının formalaşdırılması üçün geniş imkanlar açır. Bu fərmana uyğun olaraq yaradılan elektron informasiya sistemi son nəticədə işəgötürənlərlə işçilər arasında yaranmış əmək münasibətlərinin operativ, dəqiq və əhatəli uçotunun aparılması baxımından xüsusi önəm kəsb etməklə, əmək müqaviləsi bağlamadan qanunsuz işə cəlbetmə hallarına qarşı daha səmərəli və keyfiyyətli dövlət nəzarətinin həyata keçirilməsinə şərait yaradacaqdır.

Yeni iş yerlərinin açılması və müvəqqəti sərbəstləşmiş işçi qüvvəsinin sosial müdafiəsi sahəsində görülən tədbirlərlə yanaşı, bu gün əmək bazarının ölkənin sosial-iqtisadi inkişaf tempinə və xüsusiyyətlərinə uyğunlaşdırılması mexanizminin müasir səviyyədə qurulması, əmək potensialından daha dolğun istifadə edilməsi məsələləri də diqqət mərkəzində dayanır. Əmək bazarı cəmiyyətin siyasi və iqtisadi həyatında ən vacib sahədir. Burada işçi qüvvəsinin dəyəri qiymətləndirilməklə yanaşı, icarə şərtləri, əməkhaqqının kəmiyyəti, əməyin şərtləri, təhsil almaq imkanları, məşğulluğun təminatları və digər amillər müəyyənləşir və bazardakı dinamikanın əsas tendensiyaları əks olunur. Əmək münasibətlərinə operativ nəzarət edilməsi isə əmək bazarına yeni baxışın formalaşmasına gətirib çıxaracaqdır.

***- Həmin fərmanla əmək müqavilələrinə dair bildirişlərin ƏƏSMN-nin elektron informasiya sistemində qeydiyyata alınması məqsədi ilə işəgötürənlərə 1 iyul 2014-cü il tarixədək vaxt verilmişdir. İşəgötürənlərin bununla bağlı məlumatlandırılması hansı formada həyata keçirilir?***

- Fərmanın 1.4-cü maddəsinə və Əmək Məcəlləsinin 49-cu maddəsinin 4-cü hissəsinə uyğun olaraq əmək müqaviləsi bildirişi formasının, onun elektron informasiya sisteminə daxil edilməsi qaydalarının, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat formasının, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişi barədə məlumatların real vaxt rejimində əldə edilməsi ilə bağlı qaydaların layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur. Bu layihəyə uyğun olaraq, işəgötürənlərin məlumatlandırılması yalnız informasiya və dialoq xarakteri daşıyır. Layihə təsdiq olunduqdan və qüvvəyə mindikdən sonra işəgötürənlərin məlumatlandırılması ilə bağlı kompleks tədbirlər həyata keçiriləcəkdir. Tədbirlərin sistemli aparılması məqsədilə nazirliyin və Dövlət Əmək Müfəttişliyi Xidmətinin iş planları tərtib olunaraq təsdiq edilmişdir.

***- Əmək müqaviləsi bildirişləri işçilərə və işəgötürənlərə nə kimi üstünlüklər vəd edir?***

- Bu, ilk növbədə, işləyən əhalinin əmək hüquqlarının daha səmərəli müdafiəsinə şərait yaradan bir sistem olacaq. Yəni bu sistem işçinin əmək hüquqlarının müdafiəsinə, əmək müqaviləsində əksini tapmış məlumatları elektron informasiya sistemindən əldə edə bilməsinə xidmət edir. Son dəyişikliyə qədər Əmək Məcəlləsində işəgötürənlə işçi arasında müqavilənin yalnız iki nüsxədən ibarət bağlanması və bir nüsxəsinin işçiyə təqdim edilməsi nəzərdə tutulurdu. Lakin qanunvericiliyin bu tələbi, adətən, işəgötürən tərəfindən pozulur, müqavilənin bir nüsxəsi işçiyə təqdim edilmirdi. Bir çox hallarda əmək müqavilələri boş formada, zəruri məlumatlar qeyd edilmədən tərtib olunurdu və bunlar sonradan işçilərin əmək hüquqlarının müdafiəsində ciddi problemlər yaradırdı. Nəticədə işçi öz hüquqlarını bilmədiyinə və əlində rəsmi sənəd olmadığına görə, hüquqlarını tələb edə bilmirdi. Elektron informasiya sistemi işə salındıqdan sonra artıq işəgötürənlə işçi arasında bağlanmış əmək müqaviləsində qeyd olunan zəruri məlumatlar sistemə daxil ediləcəkdir. İşçi istər evdə, istər işdə, istərsə də başqa bir yerdə elektron informasiya sisteminə daxil olaraq müqavilənin mətnini əldə edə biləcək.

Elektron informasiya sistemi və onun proqram təminatı elə hazırlanıb ki, işəgötürən üçün hansısa problemlər yaranmasın. İşəgötürən asanlıqla sistemə daxil ola və əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirə biləcək. Bu, Əmək Məcəlləsinə dəyişikliklərdə də nəzərdə tutulub. Əmək müqaviləsi bağlanarkən tələb olunan məlumatlara işçinin fərdi identifikasiya kodu (FİN), sosial sığorta şəhadətnaməsinin nömrəsi də daxil edilir. İşçinin FİN kodunun sistemə daxil edilməsi digər məlumatların müvafiq mərkəzi icra hakimiyyətlərinin elektron informasiya ehtiyatlarından inteqrasiya olunmasına şərait yaradacaq.

Həm işəgötürən, həm də işçi barədə məlumatlar avtomatik olaraq sistemdə öz əksini tapacaq. Bu, işəgötürənin işinin asanlaşdırılması üçündür. Yəni işəgötürən buna çox cüzi vaxt sərf edəcək və əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə məlumatı bir iş günü ərzində əldə etmək imkanına malik olacaq. Sistemdə məlumatların təhlükəsizliyi məsələləri də nəzərə alınıb. İşəgötürən yalnız onunla bağlanan əmək müqavilələri barədə məlumatı sistemdə görə və yalnız işçiləri barədə məlumat əldə edə bilər. Onun digər şəxslər barədə məlumat əldə etmək imkanları yoxdur. İşçi də eyni qaydada yalnız özünə aid məlumatları sistemdə görə biləcək. Bu, işləyən əhalinin hüquqlarının müdafiəsinə yönəlmiş şəffaf bir sistem olacaq.

***- Elektron informasiya sisteminin yaradılması istiqamətində texniki işlər indi hansı mərhələdədir?***

- ƏƏSMN-də elektron informasiya sistemi artıq tam formalaşdırılıb, müasir tələblərə cavab verən avadanlıqlar quraşdırılıb və proqram təminatı hazırlanıb. Proqram təminatının tələblərə nə dərəcədə cavab verdiyini müəyyən etmək məqsədi ilə nazirliyin proqram bazasında test prosesləri uğurla davam etdirilir. Qeyd etdiyim kimi, işçi və işəgötürən barədə məlumatların inteqrasiyasına dair informasiya ehtiyatlarına malik əlaqədar nazirliklər və digər dövlət qurumları ilə məlumat mübadiləsi aparılır.

***- Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərin işçilərlə əmək münasibətlərinin rəsmiləşdirilməsi istiqamətində hansı tədbirləri həyata keçirir? Əmək münasibətlərini rəsmiləşdirməkdən yayınan işəgötürənlərə qarşı nə kimi inzibati tədbirlər görülür?***

- ƏƏSMN yanında Dövlət Əmək Müfəttişliyi Xidməti, əsasən, Əmək Məcəlləsi və Xidmətin Əsasnaməsi çərçivəsində əmək qanunvericiliyinə riayət olunmasına dövlət nəzarətini həyata keçirir. Görülmüş tədbirlər nəticəsində bu ilin yanvar-aprel aylarında işəgötürənlərlə işçilər arasında 3513 əmək müqaviləsinin imzalanması təmin edilmişdir.

Xidmət əmək münasibətlərini rəsmiləşdirməkdən yayınan işəgötürənlərə qarşı qanunvericiliyə uyğun qaydada cərimələr tətbiq edir. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər min manatdan üç min manatadək, vəzifəli şəxslər üç min manatdan beş min manatadək, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir.

Əmək müqaviləsi hüquqi qüvvəyə minmədən on və daha çox şəxsin işə cəlb edilməsi isə Cinayət Məcəlləsinə əsasən, cinayət məsuliyyətinə səbəb olduğundan həmin məlumatlar aidiyyəti qurumlara göndərilir.

***- Sahibkarların bu sahədə maarifləndirilməsi istiqamətində hansı tədbirlər görülür?***

- Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərin maarifləndirilməsi məqsədi ilə rayonlarda «Əmək müqaviləsi bu günün tələbi, sabahın təminatıdır» mövzusunda konfranslar təşkil edir. Bu tədbirlərə işçi kontingenti çox olan, eyni zamanda əmək qanunvericiliyinin pozulması hallarına daha çox rast gəlinən sahələr üzrə işəgötürənlərin cəlb edilməsi diqqətdə saxlanılır. Konfranslar zamanı işəgötürənləri maraqlandıran məsələlərə aydınlıq gətirilməklə yanaşı, proqram təminatının daha da təkmilləşdirilməsi üçün fikir mübadiləsi aparılır, rəy və təkliflər nəzərə alınır.

***Müsahibəni hazırladı:***
**Samir MUSTAFAYEV**

# İşgüzar görüş keçirilib

*Vergilər Nazirliyinin əməkdaşları ilə Azərbaycanda Amerika Ticarət Palatası («AmCham») arasında keçirilmiş işgüzar görüşdə qurumun bank-maliyyə-sığorta və vergi-gömrük komitələrinə üzv olan şirkətlərin nümayəndələri ilə yanaşı, ölkəmizdə fəaliyyət göstərən yerli və xarici şirkətlərin, biznes qurumlarının təmsilçiləri də iştirak edibələr. Tədbirdə Azərbaycanda azad biznes mühiti, vergi sahəsində həyata keçirilən islahatlar, sahibkarlığa dövlət dəstəyi və digər məsələlər müzakirə olunub.*

«AmCham»ın icraçı direktoru Nərgiz Nəsrullayeva-Müdüroğlu qeyd edib ki, bu cür tədbirlərin təşkili vergi ödəyiciləri ilə vergi orqanı arasında partnyorluğun genişlənməsinə, biznes mühitinin yaxşılaşmasına səbəb olur.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinov nazirlik ilə Palata arasında çox səmərəli əməkdaşlıq ənənələrinin olduğunu vurğulayıb. O, Azərbaycanda vergi qanunvericiliyində son dəyişiklik və əlavələr, aparılan islahatlar, həmçinin vergi hesabatlılığının «e-hökumət» vasitəsi ilə həyata keçirilməsi perspektivləri haqqında geniş məlumat verib. Qeyd olunub ki, respublikamızda uğurlu vergi siyasətinin həyata keçirilməsi ölkədə biznes mühitinin təkmilləşdirilməsinə kömək edir. Vergilər Nazirliyi bu mühitin daha da yaxşılaşdırılması istiqamətində ictimai təşkilatlarla müxtəlif müzakirələrin keçirilməsinə böyük önəm verir. Vergi mühitinin liberallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması məqsədilə qanun layihələri hazırlanarkən Vergilər Nazirliyi ölkədə fəaliyyət göstərən yerli və xarici biznes strukturlarının, o cümlədən «AmCham»ın və digər ictimai təşkilatların rəyini nəzərə almağa, hər bir təklifə diqqətlə yanaşmağa çalışır.

Qeyd olunub ki, bu cür görüşlərin keçirilməsi dövlət sektoru ilə özəl sektor arasında qarşılıqlı dialoqu gücləndirir, əməkdaşlığın inkişafına, sahibkarların vergi qanunvericiliyi və yeni xidmətlər haqqında məlumatlarının artmasına mühüm töhfə verir.

«AmCham»ın vergi və gömrük komitəsinin sədri Həsən Quliyev nazirlik ilə təmsil etdiyi qurum arasında səmərəli əməkdaşlığın əhəmiyyətini qeyd edib. Bildirilmişdir ki, biznes maraqlarını dəstəkləyən və təşviq edən özəl qeyri-kommersiya biznes assosiasiyası olan «AmCham» 1996-cı ildən indiyədək Azərbaycan iqtisadiyyatının bütün bölmələrində fəaliyyət göstərən şirkətlərlə sıx əlaqələrə malikdir. Qurum Azərbaycanın maliyyə-bank, sığorta, vergi, gömrük, kredit, audit və digər sahələrdəki tərəfdaşları ilə birgə layihələrin təşkili və həyata keçirilməsində fəal rol oynayır. Təşkilatın bu gün Azərbaycanda 260-dan artıq üzvü var.

**E.CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi güzəştləri və onun mahiyyəti

İnkişaf etmiş ölkələrin vergi sistemlərinə nəzər salsaq görərik ki, onların vergi qanunvericiliklərində sahibkarlığın stimullaşdırılması və sosial tənzimləmə prinsiplərinə uyğun olaraq, investisiya qoyuluşuna vergi stimullarının verilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı normalar öz əksini tapmışdır. Azərbaycan Respublikasının Vergi Məcəlləsində də vergilərin sahibkarlıq fəaliyyətini və investisiyaları təşviq etməsi, aztəminatlı təbəqələrin maddi təminatının yaxşılaşdırılması vergitutmanın əsas prinsipləri kimi müəyyən olunmuşdur.

Dünya iqtisadiyyatında qloballaşma proseslərinin sürətləndiyi bir şəraitdə dövlətin əsas iqtisadi alətlərinin rolu və onların tətbiqi metodlarının müəyyən olunması məsələləri daha da aktuallaşmışdır. Bu, iqtisadi alətlərin ən aktivi olan və büdcə sisteminin formalaşmasında mühüm rol oynayan vergilərə daha çox aiddir. Son illərdə dünya iqtisadiyyatında baş verən proseslər, o cümlədən 2008-2010-cu illərin maliyyə və iqtisadi böhranı bir daha göstərdi ki, iqtisadiyyatın stabilləşməsində və onun dinamik inkişafı üçün şəraitin formalaşmasında vergilər özünü əsas iqtisadi alətlərdən biri kimi göstərmişdir.

*Vergi güzəştlərinin əsas mahiyyətinin anlaşılması üçün, ilk növbədə, ona dövlətin vergi xərci və büdcənin gəlir hissəsini azaldan amil kimi baxılması fikirlərindən imtina olunmalıdır*

Qeyd etmək lazımdır ki, müasir dövrün iqtisadi problemləri olduqca mürəkkəb və rəngarəngdir. Büdcə defisiti mövcud olan bir şəraitdə əhalinin sosial təminatının gücləndirilməsi vəzifəsi, ilk növbədə, iqtisadiyyatın innovasiyalar əsasında dayanıqlı inkişafını tələb edir. Burada əsas məqsəd sahibkarlıq fəaliyyətinin daha da aktivləşdirilməsinə, investisiya qoyuluşlarının sürətləndirilməsinə yönəldilən vergi tənzimləmələrinə zərurətin olmasıdır. Bu, özünü daha çox yeni vergi güzəştlərinin verilməsində və mövcud güzəştlərin yenidən qiymətləndirilməsində göstərir. Bu zaman vergi güzəştlərinin əsas mahiyyətinin anlaşılması üçün, ilk növbədə, ona dövlətin vergi xərci və büdcənin gəlir hissəsini azaldan amil kimi baxılması fikirlərindən imtina olunmalıdır.

Demək olar ki, sahibkarlığın inkişafını nəzərdə tutan istənilən vergi güzəşti istehsal həcminin artırılması, texnologiyaların inkişaf etdirilməsi üçün şərait yaradaraq, büdcənin həmin sahələrdən olan vergi gəlirlərinin artımını təmin edir. Eyni zamanda, nəzərə alınmalıdır ki, vergi güzəştlərinin verilməsi həm də əhalinin məşğulluğunun artırılmasına, sosial gərginlik yaradan faktorların zəifləməsinə, iqtisadi aktivliyin sürətli inkişafına və strateji inkişaf faktorlarına müsbət təsir göstərir. Bütün bunlar isə öz növbəsində, dolayısı ilə də olsa, uzunmüddətli perspektivdə dövlət xəzinəsinə vergi gəlirlərinin artırılmasına şərait yaradır.

Vergi güzəştlərinin verilməsinin müasir formaları müəyyən olunarkən həm milli istehsalın prioritet istiqamətlərinin, milli əməyin, kapitalın və istehlakın xüsusiyyətlərinin, həm də xarici investisiyalara olan ehtiyacın dərəcəsinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Bunlar da, öz növbəsində, istehsalın miqyasının genişləndirilməsinə, gəlirlərin xammal istehsal edən sahələrdən emal sahələrinə paylanmasına imkan verir. Nəzərə alınmalıdır ki, bütün hallarda vergi yükü, əsasən, daha sürətli inkişaf tempi olan istehsal sahələrinin üzərinə düşür (kənd təsərrüfatından başqa). Bu da deməyə əsas verir ki, vergi yükünün sahələr üzrə paylanması və onun bərabərləşdirilməsi investisiyaların stimullaşdırılmasında vacib məsələlərdən biridir.

Vergi güzəştləri vergi mənbələrinin qorunub saxlanmasına müsbət təsir göstərməklə istehsalın, kapitalın azalmasının qarşısını alır və vergitutma bazasının leqallaşdırılmasına şərait yaradır. Eyni zamanda, ölkə qanunvericiliyində vergi güzəştlərinin olması gəlirlərin nisbətən güzəştli vergi tutulan ölkələrə transfer olunmasının qarşısını müəyyən dərəcədə almış olur. Vergi güzəştlərinin bu cür funksiyalarından irəli gələrək, investisiyaların stimullaşdırılmasına yönəldilən vergi tənzimləmələri özünü ilk növbədə mənfəət vergisi üzrə verilən investisiya güzəştlərinin tətbiqində büruzə verir. Belə ki, investisiyaya və ya kreditlərin qaytarılmasına yönəldilən mənfəətin vergidən azad edilməsi vergi ödəyicilərinin daxili resurslarından istifadə olunması imkanlarını genişləndirir.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, təsərrüfat subyektlərinə verilən vergi güzəştlərinin əsas mahiyyəti birbaşa vergilərin tətbiq edildiyi sahələrdə özünü daha çox büruzə verir. Çünki bu sahədə fəaliyyət göstərən vergi ödəyiciləri onlara verilən vergi güzəştləri hesabına əldə etdikləri əlavə vəsaitləri investisiya qoyuluşlarına yönəldərkən güzəştin əhəmiyyətini, demək olar ki, dərhal hiss edirlər. Bundan əlavə, birbaşa vergilər kommersiya xərclərinin içərisində «gizlənmir» və onun məbləği çox aydın seçilir. Vergi güzəştlərinin verilməsinin bir xüsusiyyəti də odur ki, əsasən onlardan bir qisim vergi ödəyicisi istifadə edir, digərləri isə yox. Bu isə vergi güzəştlərinin kimlərə verilməli olduğu məsələsində dövlət qurumlarının məsuliyyətini daha da artırır.

Ümumiyyətlə, istənilən halda güzəştlərin verilməsi vergitutmanın ədalətlilik prinsipini pozmamalı və vergi münasibətlərinin hər bir iştirakçısına bərabər münasibəti təmin etməlidir. Son illərin təcrübəsi göstərir ki, dövlət xərclərinin yerinə yetirilməsi üçün tələb olunan maliyyə resurslarının vergi islahatları hesabına əldə edilməsi hələ əsas məsələ deyildir. Buna görə də dövlətin maliyyə siyasətində ilk növbədə vergi yükünün sərhədlərinin müəyyən olunması ön planda dayanmalı, sonra isə dövlət xərclərinin planlaşdırılması həyata keçirilməlidir.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Gəlirlərin və xərclərin uçotu

***Fərdi sahibkar kimi gəlirlərimin və xərclərimin uçotunu hansı qaydada aparmalıyam? Gəlirlərimin, xərclərimin, eyni zamanda vergitutma obyektlərimin uçotunu aparmadıqda və ya düzgün aparmadıqda bu, hansı nəticələrə səbəb ola bilər?***

Vergi Məcəlləsinin (VM) 16.1.3-cü maddəsinə əsasən, qanunvericiliklə gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunu aparmaq vergi ödəyicisinin vəzifəsidir. VM-in 130-cu maddəsində vergi ödəyicisinin gəlirinin və xərcinin uçotu, 71-ci maddəsində vergi ödəyiciləri tərəfindən uçot sənədlərinin tərtib edilməsi və saxlanılması, 139-cu maddəsində isə əmtəə-material ehtiyatlarının uçotu qaydaları müəyyən edilmişdir. 130-cu maddədə qeyd edilmişdir ki, vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa, tətbiq edilən uçot metodundan asılı olaraq gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə borcludur. Ödəyicinin istifadə etdiyi uçot metodunda xərclərin və daxilolmaların müddətləri və uçotu qaydasına dair bütün tələblər nəzərə alınmalıdır.

VM-in 130-cu maddəsində başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan gəlir VM-in tələblərinə əməl etmək üçün zəruri düzəlişləri aparmaq şərtilə vergi ödəyicisinin öz mühasibat uçotunda istifadə etdiyi metodla hesablanmalıdır. Ödəyici vergi ili ərzində eyni metodu tətbiq etmək şərti ilə vergilərin uçotunu kassa metodu və ya hesablamalar metodu ilə apara bilər. İstifadə edilən uçot metodu dəyişdirilərkən verginin məbləğinə təsir göstərən mühasibat əməliyyatlarına düzəlişlər uçot metodunun dəyişdirildiyi ildə aparılmalıdır ki, bu əməliyyatlardan heç biri nəzərdən qaçırılmasın və ya iki dəfə hesaba alınmasın.

VM-in 131-ci maddəsinə əsasən, kassa metodu ilə uçot aparan vergi ödəyicisi gəliri əldə edəndə və ya gəlir onun sərəncamına veriləndə bu gəliri nəzərə almalı və gəlirdən öz xərclərini yalnız bu xərcləri çəkdiyi zaman çıxmalıdır.

VM-in 134-cü maddəsinə əsasən, hesablama metodu ilə uçot aparan vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq, gəlirini və xərcini müvafiq surətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə almalıdır. 76.1-ci maddədə qeyd edilmişdir ki, vergi ödəyicisi VM ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparmadıqda vergi orqanları kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə yazılı bildiriş göndərməklə, həmin bankın xidmət etdiyi vergi ödəyicisinin (şəxsin) bank hesabı və əməliyyatları barədə məlumat ala bilər.

VM-in 67.1-ci maddəsinə əsasən, vergi ödəyicisi tərəfindən mühasibat uçotu aparılmadıqda və ya mühasibat uçotu müəyyən edilmiş qaydada aparılmadıqda vergi orqanları ödənilməli olan verginin məbləğini həmin maddədə göstərilən əlaqəli məlumatlardan istifadə etməklə hesablaya bilər. Məcəllənin 12.3-cü maddəsinə görə, vergitutma obyekti gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri və ya VM ilə müəyyənləşdirilən digər vergitutma obyektləridir.

VM-in 58.8-ci maddəsinə əsasən, xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə vergi ödəyicisinə gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 5% miqdarında, il ərzində belə hallara təkrar yol verildikdə gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 10%-i məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

## «Universal Çağrı Mərkəzi» üçün loqotip və şüar müsabiqəsinin ELANI

Azərbaycan Respublikası Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət sahələrini əhatə edəcək «Sahibkarlıq fəaliyyəti sahəsində Universal telefon məlumat xidməti - Çağrı Mərkəzi» barədə Vergilər Nazirliyi tərəfindən müsabiqə elan edilir.

**Müsabiqənin mövzuları:**

- «Universal Çağrı Mərkəzi» loqotipi üzrə;
- «Universal Çağrı Mərkəzi» şüarı üzrə.

**Müsabiqənin tələbləri**

- Müsabiqədə iştirak sərbəstdir;
- Müsabiqəyə hər bir şəxs tərəfindən təqdim edilən loqotip və (və ya) şüar sayına məhdudiyyət qoyulmur;
- Müsabiqə istirakçılarından kreativlik tələb olunur;
- Təqdim olunan loqotip və (və ya) şüar unikal olmalı, hər hansı təşkilatın loqosuna, şüarına və ya devizinə, marka və ya nişanına bənzəməməlidir;
- Plagiat hesab olunan loqotip və (və ya) şüar müsabiqəyə qəbul edilməyəcəkdir.

**Müsabiqəyə təqdim olunan loqotipin aşağıdakı şərtlər daxilində göndərilməsi tövsiyə olunur (loqotipin başqa formatda, ölçüdə göndərilməsinə məhdudiyyət qoyulmur):**

- Loqotipin PNG, TIFF, CDR, PSP, AI, EPS, WMF formatlarından birində olması;
- Loqotipin ölçüsünün 300dpi və daha çox olması;
- Loqotipin rəngli və monoxrom variantda təqdim olunması.

**Müsabiqəyə təqdim olunan şüarın aşağıdakı şərtlər daxilində göndərilməsi tövsiyə olunur (şüarın bir neçə sözdən ibarət olmasına məhdudiyyət qoyulmur):**

- Azərbaycan dilində olması;
- Üç sözdən artıq olmaması.

2014-cü il mayın 6-dan 26-dək davam edəcək müsabiqəyə təqdim edilmiş ən maraqlı, kreativ və «Universal Çağrı Mərkəzi»nin fəaliyyətinə uyğun loqotip və şüarların ən yaxşısı seçilərək onların müəllifləri mükafatlandırılacaq:

- Loqotip üzrə: «Surface PRO» planşeti ilə;
- Şüar üzrə: «Microsoft Surface RT + Touch Cover» planşeti ilə.

İştirakçılar öz işlərini **facebook.com/vergiler** - səhifəsinə, həmçinin **info@taxes.gov.az** ünvanına göndərə bilərlər.

# «Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi» yaradılır

## *Məqsəd sahibkarlara göstərilən dövlət dəstəyinin səmərəliliyini artırmaq, fiziki və hüquqi şəxslərin vahid mənbədən məlumat almalarını təmin etməkdir*

*Azərbaycanda biznes mühitinin daha da liberallaşdırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri də sahibkarların müvafiq dövlət qurumlarından məlumat əldə etmək imkanlarının genişləndirilməsidir. Özəl sektorun təmsilçiləri ilə daha sıx təmasda olan, onlara müxtəlif xidmətlər göstərən nazirlik, komitə, xidmət və agentliklər bu məqsədlə fəaliyyətlərində mütərəqqi yenilikləri nəzərə alır, informasiya-kommunikasiya texnologiyalarının ən son yeniliklərinin, o cümlədən «e-xidmətlər»in geniş tətbiqinə nail olmağa çalışırlar.*

Təcrübə göstərir ki, sahibkarların məlumatlandırılması, onlara zəruri bilik, bacarıq və vərdişlərin aşılanması bisnes mühitinin yaxşılaşmasına müsbət təsir göstərən mühüm amillərdəndir. Ölkə başçısının 2011-ci il 26 oktyabr tarixli «Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında» fərmanına əsasən yaradılmış icazələrin elektron informasiya portalı (www.icazeler.gov.az) ölkə vətəndaşlarının, eləcə də sahibkarların icazələrlə bağlı məlumatlılıq səviyyəsinin yüksəldilməsini təmin edir. Sayt sahibkarları icazələr haqqında ətraflı məlumatlandırmaqla yanaşı, sahibkarlıq fəaliyyətinə başlamaq, fəaliyyətini genişləndirmək istəyən iş adamlarına tələb olunan icazə xarakterli sənədlər, onların alınması prosedurları, icazələrin verilmə və qüvvədə olma müddətlərinə dair məlumatları vahid mənbədən əldə etməyə imkan verir.

Son illər qəbul olunmuş bir sıra dövlət proqramlarında, imzalanmış fərman və sərəncamlarda da sahibkarların məlumatlandırılması işinin müasir tələblər səviyyəsində qurulmasının vacibliyi ön plana çəkilib. Ölkə başçısının 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın 7-ci maddəsinə («Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması») əsasən, 2012-2014-cü illərdə vergi ödəyicilərinin zəruri məlumatlarla təmin edilməsi; vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi; vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun «Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksi»nə uyğunlaşdırılması sahəsində tədbirlərin görülməsi Vergilər Nazirliyinin qarşısında mühüm vəzifələr kimi müəyyənləşdirilib.

2012-ci il 5 sentyabr tarixli «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»a əsasən, İqtisadiyyat və Sənaye Nazirliyi sahibkarların dövlət orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və onların həlli üçün tədbirlərin müəyyən edilməsi, eləcə də sahibkarlıq sahəsində qanunsuz yoxlamalar barədə məlumatların qəbulu üçün elektron portalın və telefon xidmətinin təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirməlidir.

Hazırda sahibkarların, ümumən vergi ödəyicilərinin məlumatlandırılması istiqamətində həyata keçirilən mühüm layihələrdən biri də universal telefon-məlumat xidmətinin yaradılmasıdır. Nazirlər Kabinetinin 2013-cü il 28 oktyabr tarixli sərəncamına əsasən, Vergilər, Maliyyə, Ədliyyə, İqtisadiyyat və Sənaye, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, habelə Dövlət Gömrük Komitəsinin və Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət sahələrini əhatə edəcək «Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi»nin yaradılması nəzərdə tutulur. Belə bir mərkəzin yaradılmasında başlıca məqsəd sahibkarlara göstərilən dövlət dəstəyinin səmərəliliyinin artırılması, dövlət və sahibkarlar arasında münasibətlərin yaxşılaşdırılması və sadələşdirilməsi, fiziki və hüquqi şəxslərin vahid mənbədən məlumat almalarının təmin olunması, əhali arasında hüquqi maarifləndirilmə işinin səviyyəsinin yüksəldilməsidir. Sahibkarların, ümumilikdə, vətəndaşların vaxt itkisinə yol vermədən vahid mənbədən məlumat almaq məqsədilə universal telefon-məlumat xidmətinə müraciət etmələri «ASAN xidmət»dən sonra daha bir innovativ yeniliyin uğurla reallaşdırılması demək olacaq.

«Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi»nin yaradılması prosesi Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinin bazası əsasında həyata keçirilir. Artıq nazirlik mərkəzin loqotip və şüarının hazırlanması ilə bağlı sərbəst müsabiqə də elan edib. 2014-cü il mayın 6-dan 26-dək davam edəcək müsabiqəyə təqdim edilmiş ən maraqlı, kreativ və «Universal Çağrı Mərkəzi»nin fəaliyyətinə uyğun loqotip və şüarların ən yaxşısı seçilərək müəllifləri mükafatlandırılacaq.

Nazirliyin «195» Çağrı Mərkəzi İdarəsinin rəisi Nurlan Bayramov qəzetimizə açıqlamasında bildirib ki, vergi xidməti orqanlarının özünü doğrultmuş uğurlu təcrübəsi əsasında yaradılan «Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi» ölkəmizin biznes nüfuzunun yüksəlməsinə, vergi ödəyicilərinin müvafiq dövlət qurumlarına operativ müraciət ünvanlamaq və məlumat almaq imkanlarının genişlənməsinə şərait yaradacaq. Vurğulanıb ki, Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi ötən illərdəki fəaliyyəti ilə vergi ödəyicilərinin böyük inam və etimadını qazanıb: «Xatırlatmaq lazımdır ki, «195» Çağrı Mərkəzi 2003-cü ildə fəaliyyətə başlayanda yalnız Bakı şəhərinin ərazisini əhatə edirdi. 2006-cı ildən isə bu xidmətdən bütün respublika ərazisində istifadə etmək imkanı yaradıldı. 2009-cu ilin sentyabr ayında İqtisadiyyat və Sənaye Nazirliyi «195-2» prefeksi ilə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə qoşuldu».

N.Bayramovun sözlərinə görə, fasiləsiz rejimdə çalışan «195» Çağrı Mərkəzinin fəaliyyəti böyük populyarlıq qazanıb: «Çağrı Mərkəzi həm canlı, həm də avtomatik rejimdə fasiləsiz fəaliyyət göstərir. 2013-cü ildə mərkəzə 2 milyon 386 min 66 müraciət olub. 2014-cü ilin yanvar-aprel aylarında isə Çağrı Mərkəzinə edilmiş bütün müraciətlərin sayı 71 min 754 təşkil edib. 58 min 476 müraciət canlı rejimdə daxil olub, 13 min 278 dəfə səsli menyudan istifadə edilib. Çağrı Mərkəzi 2011-ci ilin sentyabr ayında keçirilmiş ilk audit və 2012-ci ilin oktyabr ayında keçirilmiş təkrar audit nəticəsində ISO-nun üzvü seçilib, sorğu mərkəzlərinin idarəetmə sistemi üzrə vahid Avropa standartını müəyyən edən «Austrian Standards plus»un «EN-15838» standartlarına uyğunluq üzrə keyfiyyət sertifikatı alıb. Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinin uğurlu təcrübəsi universal telefon-məlumat xidmətinin yaradılması üçün bir növ uğurlu bünövrə rolunu oynayır».

*Mərkəzin fəaliyyətində çeviklik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və vətəndaş məmnunluğu prinsipləri təmin olunacaqdır*

N.Bayramovun sözlərinə görə, «Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi»nin yaradılması nəticəsində Vergilər, İqtisadiyyat və Sənaye nazirliklərinin mövcud çağrı mərkəzlərinin fəaliyyəti daha da təkmilləşdiriləcək. Bundan əlavə, Maliyyə, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Dövlət Gömrük Komitəsi və Dövlət Sosial Müdafiə Fondunun çağrı mərkəzlərinin yaradılması yolu ilə onların vahid nömrədə (195) birləşdirilməsi təmin olunacaq: «Universal Çağrı Mərkəzinin yaradılması nəticəsində iş adamları, ümumilikdə əhali sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatı, fəaliyyət növləri üzrə lisenziyalar, vergilər, rüsumlar, gömrük rəsmiləşdirmələri, sosial və digər icbari ödənişlər, əmək qanunvericiliyi, sosial müdafiə, pensiya təminatı, mühasibat uçotu və digər məsələlər barədə ətraflı məlumat ala biləcəklər. Mərkəzin fəaliyyətində çeviklik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və vətəndaş məmnunluğu prinsipləri təmin olunacaqdır».

**S.MUSTAFAYEV**

# Dövlət Neft Fondunun büdcə gəlirlərində artım qeydə alınmışdır

*Cari ilin yanvar-mart aylarında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) büdcə gəlirləri 3005 milyon manat, büdcə xərcləri isə 2443,3 milyon manat təşkil etmişdir.*

Fondun mətbuat xidmətindən bildirmişlər ki, 2014-cü ilin ilk 3 ayında ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 3006,8 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 2991,2 milyon manat, tranzit gəlirləri 2,3 milyon manat, bonus ödənişləri 13,3 milyon manat təşkil etmişdir.

Hesabat dövrü ərzində ARDNF-in 2014-cü il büdcəsinin icrası çərçivəsində 2342,6 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 70,1 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 5,6 milyon manat vəsait ayrılmışdır. Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə Neft Fondundan 5,1 milyon manat vəsait ayrılmışdır. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə 3 milyon manat vəsait yönəldilmişdir. 2014-cü ilin yanvar-mart ayları ərzində fondun idarə edilməsi ilə bağlı xərclər 16,9 milyon manat təşkil etmişdir.

Cari ilin əvvəlində Ukrayna ilə bağlı hadisələrin nəticəsi olaraq Dövlət Neft Fondunun Rusiyadakı investisiyalarının qiymətlərində kəskin enmə müşahidə olunmuşdur. Bununla bağlı digər investisiyalardan əldə edilən gəlirlərə baxmayaraq, fondun vəsaitlərinin idarə olunması cari ilin birinci rübü ərzində 1,8 milyon manat həcmində zərərlə nəticələnmişdir. Sonrakı aylarda Rusiya şirkətlərinin səhmlərinin qiymətlərində sabitləşmə və müəyyən artım baş vermiş və 2014-cü il yanvarın 1-dən mayın 15-dək Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə olunan gəlirlər 87,8 milyon manat təşkil etmişdir.

2014-cü ilin yanvar-mart ayları ərzində valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq üzrə fondun büdcədənkənar gəlirləri 10,1 milyon manat təşkil etmişdir. O cümlədən qızılın qiymətinin dəyişməsindən yaranan fərq üzrə ARDNF-in büdcədənkənar gəlirləri 60,8 milyon manat, ABŞ dolları, avro, ingilis funt-sterlinqi və digər valyutalarının dəyişməsindən yaranan fərq üzrə büdcədənkənar xərclər 50,7 milyon manat təşkil etmişdir.

Cari il aprelin 1-nə ARDNF-in aktivləri 2014-cü ilin əvvəlinə (35.877,5 milyon ABŞ dolları) nisbətən 2,07 faiz artaraq 36.618,4 milyon ABŞ dollarına bərabər olmuşdur.

2012-ci ildən etibarən ARDNF qızılın alınmasına başlamışdır və 2014-cü il aprelin 1-nə fond tərəfindən alınmış qızılın miqdarı 30175 kiloqram (970.146 troya unsiyası) təşkil etmişdir.

# Biznes sektoruna etimad yüksəlir

*Mərkəzi Bank (MB) Azərbaycanda biznes mühitinin vəziyyətini əks etdirən etimad indeksi adlı hesabatını açıqlayıb.*

Etimad indeksi ölkənin bütün regionlarını əhatə etməklə 5000-ə yaxın sahibkarlıq subyektinin sorğusunun nəticələrinə əsasən müəyyən olunub. Ev təsərrüfatlarında həyata keçirilən sorğularda ölkədə iqtisadiyyatın real sektorunun müxtəlif sahələri üzrə qiymətləndirmələr aparılıb, iqtisadi bölmələrdəki aktivlik göstəriciləri təhlil olunub. Sorğu sahibkarların gəlir səviyyəsinə, məşğuliyyət növünə, iş rejiminə, təhsilinə, yaşına və cinsinə görə təsnifləşdirilib. MB yekun olaraq 2014-cü ilin birinci rübünü əhatə edən iqtisadiyyatın istehsal, ticarət və xidmət sahələrinin də əks olunduğu icmal hazırlayıb.

*Son bir ildə sahibkarların hüquqlarının müdafiəsi üzrə qəbul edilmiş qanunlar, eləcə də digər hüquqi aktlar biznes mühitinin yaxşılaşmasında mühüm rol oynayıb*

İcmalda cari ilin ilk 3 ayında ölkəmizin biznes sektorunda müsbət dəyişikliklərin baş verdiyi, bir sıra göstəricilərin yaxşılaşdığı, ümumilikdə iqtisadi fəallıqla bağlı nikbin gözləntilərin müşahidə edildiyi bildirir. İstehsal sektorunda əhəmiyyətli artım meyilləri qeydə alınıb ki, bu da ölkədə biznes sektorunda inamın güclənməsinin təzahürüdür. Əldə olunan müsbət iqtisadi amillər və digər tendensiyalar Azərbaycanın biznes sektorunda etimad indeksinin bir neçə bənd yüksəlməsinə səbəb olub.

Biznesə inam və etibarın əsas göstəricilərindən biri sahibkarlığa başlayan şəxslərin qeydiyyatı və sahibkarlıq sektorunda şəffaflığın təmin olunması ilə bağlıdır. Bura lisenziyalaşdırma, tələb olunan sənədlərin sayı və digər komponentlər də daxildir.

İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Zaur Qasımovun bildirdiyinə görə, son illər ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması ilə bağlı zəruri tədbirlər görülüb. Lisenziyalaşdırma sahəsində Avropanın ən qabaqcıl biznes təcrübəsi öyrənilərək tətbiq olunub, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara qarşı lisenziya verən dövlət orqanları tərəfindən yol verilən neqativ hallar aradan qaldırılıb, bürokratik əngəllərə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarının qarşısını alan və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq olunub, sahibkarlıq subyektlərinin qeydiyyatı proseduru əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Son bir ildə sahibkarların hüquqlarının müdafiəsi üzrə qəbul edilmiş qanunlar, eləcə də digər hüquqi aktlar biznes mühitinin yaxşılaşmasında mühüm rol oynayıb. Ölkə başçısının imzaladığı «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» fərman sahibkarlıq fəaliyyətinin təşviqi baxımından böyük əhəmiyyət kəsb edib. Bu sahədə daha təkmil mexanizmləri özündə əks etdirən qaydaların tətbiq olunması investisiya reytinqinin müəyyən edilməsində mühüm rol oynayıb.

Ölkənin iqtisadi etimad indeksinə təsir edən amillərdən ən başlıcası xarici investorların maraq dairəsində və qoyulan sərmayələrin həcmində də özünü göstərir. Son 20 ildə Azərbaycan iqtisadiyyatına cəlb olunan sərmayələrin ümumi həcmi 130 milyard dollara çatıb. Bunun da təxminən 55-60%-i xarici investorların payına düşür. 2013-cü ildə ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın xarici investisiya qoyulub. Əlverişli biznes mühiti ilə yanaşı, makroiqtisadi sabitlik, biznes sektorunda qanunvericiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinin yeni dövrün meyarlarına uyğunlaşdırılması, dövlət-biznes münasibətlərinin tənzimlənməsi, iqtisadiyyatda korrupsiya yaradan halların qarşısının alınması istiqamətində atılan addımlar, şəffaflıq, idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, azad bazar prinsiplərinin formalaşması, ticarətin liberallaşdırılması, şirkətlərin müstəqilliyi və digər sahələrdə də Azərbaycan irəliləyişlər əldə edib.

Biznesə etimadın əsas göstəriciləri arasında vergi ödəyicilərinin fəaliyyətinə yaradılan əlverişli şərait də xüsusi yer tutur. Vergi sistemində tətbiq edilən «bir pəncərə» prinsipi sayəsində qeydiyyat prosedurlarının sadələşdirilməsi, ödəyicilərin rahatlığının təmin edilməsi, vergi orqanı ilə ödəyici arasında canlı təmasın, uzun vaxt aparan sənədləşmə prosedurlarının minimuma endirilməsi, əksər vergi xidmətlərinin elektron qaydada həyata keçirilməsi, elektron bəyannamə sisteminin tətbiq olunması, vergilərin və dövlət rüsumlarının elektron ödəniş sisteminin yaradılması sahibkarların biznes fəaliyyəti üçün güclü stimul yaradır.

**Elbrus CƏFƏRLİ**

# Bilik müsabiqəsinə yekun vuruldu



Bakı Şəhər Vergilər Departamenti tərəfindən tədris ilinin başa çatması ərəfəsində vergilər barədə biliklərin mənimsənilməsində yüksək nailiyyətlər əldə etmiş şagirdlərin stimullaşdırılması məqsədilə Yasamal rayonundakı 225 nömrəli tam orta məktəbdə şagirdlər arasında ənənəvi olaraq 9-cu dəfə bilik müsabiqəsi keçirilmişdir. Müsabiqədə Bakıdakı 63 orta məktəbi təmsil edən 66 şagird iştirak etmişdir.

Qaliblərin mükafatlandırılması tədbirində iştirak edən BŞVD-nin idarə rəisi Elman Daşov qeyd etmişdir ki, Bakı şəhəri üzrə Təhsil İdarəsi ilə birgə məktəblilər arasında vergilər mövzusunda bilik yarışmasının keçirilməsində məqsəd gələcək vergi ödəyicilərində vergi mədəniyyəti aşılamaqdır.

225 nömrəli məktəbin direktoru Sevda Eminova tədris müəssisələrində vergilərlə bağlı metodiki kabinetlərin və tədris ocaqlarının yaradılmasına görə Vergilər Nazirliyinə təşəkkürünü bildirmiş, gənc nəslin vergilər barədə bilik və bacarıqlara yiyələnməsində məktəblilər arasında keçirilən müxtəlif tədbirlərin böyük rolu olduğunu qeyd etmişdir.

Bilik yarışmasının nəticələrinə görə, III-V siniflər üzrə Xətai rayonu 63 saylı məktəbin şagirdi Murad Əliyev 1-ci, Binəqədi rayonu 83 saylı orta məktəbin şagirdi Əminə İslam 2-ci, Nərimanov rayonu 258 saylı məktəbin şagirdi İlham Süleymanlı 3-cü; VI-VIII siniflər üzrə Yasamal rayonu 225 saylı məktəbin şagirdi Elmira Məmmədova 1-ci, Səbail rayonu 51 saylı məktəbin şagirdi Asəf Əliyev 2-ci, Binəqədi rayonu 126 saylı məktəbin şagirdi Tuncay Məhəmmədli 3-cü; IX-XI siniflər üzrə Qaradağ rayonu 253 saylı məktəbin şagirdi Elcan Alməmmədov 1-ci, Nəsimi rayonu 16 saylı məktəbin şagirdi Müseyib Şirəliyev 2-ci, Xətai rayonu 269 saylı məktəbin şagirdi Samir Salahov 3-cü yerə çıxmışdır.

Qaliblər respublika üzrə keçiriləcək müsabiqədə iştirak etmək hüququ qazanmışlar.

**AYTƏN**

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ
«Vergilər» qəzeti

## Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə təşkil etdiyi «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin

## ELANI

Müsabiqənin məqsədi ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müasir vergi sistemi ilə bağlı yeniliklərin və məlumatların cəmiyyətə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

***Müsabiqənin mövzuları:***

- Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti;
- Vergi Partyorluğu Sazişi: qarşılıqlı inam və etimad körpüsü;
- Əmək müqaviləsi: gələcəyin təminatı.

***Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması***

Müsabiqəyə hər üç istiqamət üzrə təqdim edilmiş yazıların mükafatlandırılması nəzərdə tutulur.

➔ I yer (3) - 800 manat
➔ II yer (3) - 500 manat
➔ III yer (3) - 300 manat

Bundan əlavə, 10 ən yaxşı yazı müəllifinə həvəsləndirici mükafatlar veriləcəkdir. Qaliblər Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin xüsusi diplomları ilə təltif olunacaqlar.

***Müsabiqədə iştirak***

Müsabiqə elan olunan gündək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, televiziya və informasiya agentliklərində) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

***Müsabiqəyə təqdim olunan yazılara aid tələblər***

1. Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.
2. Yazı son bir ildə həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi «qara siyahı»ya düşməyən mətbuat orqanlarında dərc edilməlidir.
3. Yazıda «Vergilər Nazirliyinin «Vergilər» qəzetinin və Azərbaycan Mətbuat Şurasının keçirdiyi müsabiqəyə təqdim etmək üçün» qeydi göstərilməlidir.

***Yazıların qəbulu şərtləri***

1. Yazının dərc olunduğu mətbuat orqanı (qəzet, jurnal) - 1 nüsxə.
2. Yazının elektron variantı - CD diskdə. (Əgər yazı internet media resursunda gedibsə, CD diskdə yazının linki də göstərilməlidir).
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstəril məməlidir) - 3 nüsxə.
4. Yazının həcmi 9-11 min işarə arasında olmalıdır.

***Tələb olunan sənədlər***

1. İşlədiyi KİV tərəfindən müəllifə verilən vəsiqənin surəti.

*Yazıların qəbulu 01 may 2014-cü il tarixdən başlayır, 31 may 2014-cü il tarixdə bitir. Müsabiqənin nəticələri 2014-cü il iyunun 10-dək açıqlanacaqdır.*

*Yazılar rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Azərbaycan Mətbuat Şurasına şəxsən təqdim olunmalıdır (Bakı şəhəri, Teymur Əliyev küç., 38).*

*Əlaqə tel.:*
*(012) 441 35 95; (050) 534 93 26;*
*(055) 201 99 26*

***Qiymətləndirmə meyarları:***

- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- məqalənin oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti.

# Dünya Bankının Azərbaycanla əlaqələri genişlənir

## *Bank ölkəmizə 2 milyard dollar investisiya qoyacaq*




Dünya Bankının (DB) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Larisa Leşşenko bildirib ki, DB-nin Direktorlar Şurası qarşıdakı üç ildə Azərbaycanda əməliyyatlar üzrə biznes planını təsdiqləyib. Yeni sənəd bankla ölkəmiz arasında tərəfdaşlığa dair yeni strategiyanın əsas istiqamətlərini özündə əks etdirir və müasir iqtisadi meyarlar nəzərə alınmaqla hazırlanıb. Bankın Azərbaycanla əməkdaşlıq strategiyasına sosial və infrastruktur layihələri daxildir. Respublikamızla əməkdaşlığa başladığı dövrdən indiyə qədər layihələrə 3,5 milyard dollara yaxın investisiya qoyan bankın fəaliyyət fəlsəfəsində insan amili başlıca yer tutur və layihələrin icrası insanların həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilir. Bölgələrdə yolların yenidən qurulması, enerji və su təsərrüfatının modernləşdirilməsi də məhz insanların sosial yaşayış imkanlarının yaxşılaşmasında ciddi rol oynayıb.

*Dünya bankı yol təsərrüfatı ilə bağlı layihələrin maliyyələşdirilməsini investisiya siyasətinin əsas hədəflərindən biri hesab edir*

DB 2014-cü ildə əsas maliyyələşməni Bakı Metropolitenində aparacaq. Bank metroda yeni stansiyaların tikintisi və vaqon parkının yenilənməsi üçün vəsait ayırmağı planlaşdırır. Layihə çərçivəsində Bakı vaqon deposunun, lokomotiv parkının yenidən qurulması, yeni vaqonların alınması, metronun yeni xətlərinin - Badamdar, Xırdalan, Babək, Şıx, Binəqədi istiqamətləri üzrə stansiyaların tikintisi nəzərdə tutulur. Digər layihələr infrastruktur, nəqliyyat, yol təsərrüfatı, ekologiya, kənd təsərrüfatı, təhsil, səhiyyə, idarəetmə ilə bağlı sahələri əhatə edəcək.

L.Leşşenko bildirib ki, hazırkı mərhələdə DB yol təsərrüfatı ilə bağlı layihələrin maliyyələşdirilməsini investisiya siyasətinin əsas hədəflərindən biri hesab edir. Ümumiyyətlə, 2014-2017-ci illərdə DB-nin maliyyələşdirmək istədiyi layihələrin böyük bir hissəsi şəhər nəqliyyatında hərəkətin təhlükəsizliyinin təmin olunması, yol təsərrüfatının modernləşdirilməsi və infrastrukturun yenidən qurulmasına yönəldiləcək. DB paytaxtda tıxacların aradan qaldırılması üçün ətraf əraziləri birləşdirən yeni daxili yolların çəkilməsini, yolların genişləndirilməsini, 2-3 mərtəbəli yol şəbəkələrinin salınmasını, eləcə də yeraltı keçid və tunellərin inşa edilməsini nəzərdə tutan konsepsiyanı dəstəkləyib. Ümumiyyətlə, DB Azərbaycanla əməkdaşlıq strategiyasına uyğun olaraq yaxın müddət üçün 25 layihə üzrə 2 milyard dollar ayrılmasını planlaşdırır.

Bank qarşıdakı illərdə Azərbaycan iqtisadiyyatının vəziyyəti ilə bağlı proqnozları da açıqlayıb. Proqnozlara görə, 2014-cü ildə Azərbaycanda ÜDM 4,1% artacaq. Hökumət maliyyə sabitliyinin əsas göstəricilərindən biri olan istehlak qiymətləri indeksinin nəzarətdə saxlanmasını təmin etmək iqtidarındadır. Bankın mövqeyinə əsasən, Azərbaycan hökuməti inflyasiyanın qarşısının alınması ilə bağlı dövlət orqanlarının koordinasiya olunmuş birgə fəaliyyəti sayəsində qiymət indeksini nəzarətdə saxlamağa qadirdir. Respublikamızda inflyasiyanın 2014-cü ildə 3-3,5%-ə bərabər olacağı proqnozlaşdırılır. Azərbaycan hökumətinin ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq məqsədilə qeyri-neft sektorunun inkişafı ilə bağlı konsepsiyası DB-də böyük maraq doğurur və təşkilat bu sahənin inkişafına öz töhfəsini vermək qərarlıdır. Bank nümayəndəsi qeyd edir ki, ölkə iqtisadiyyatın çoxşaxəlidir və ÜDM artımını qeyri-neft-qaz sektorunun davamlı və sıçrayışlı inkişafı hesabına təmin etmək, iqtisadiyyatın inkişaf istiqamətlərinin şaxələndirilməsini genişləndirmək tam mümkündür. Ölkədə iqtisadi fəallığın artmasında, xüsusilə də qeyri-neft sektorunda artımın əldə olunmasında səmərəli maliyyə-bank, vergi-gömrük siyasəti mühüm rol oynayır. Digər tərəfdən, kənd təsərrüfatı istehsalında ƏDV-nin götürülməsi, antikorrupsiya fəaliyyətləri, elektron hökumətin yaradılması müsbət təmayüllərə təkan verən amillərdir. Proqnozlara görə, qarşıdakı 3 ildə Azərbaycanda ÜDM-in qeyri-neft sektoru üzrə artım tempi milli gəlirlə yanaşı, adambaşına düşən gəlirlərin həcminin də yüksəlməsinə təsir edəcək.

**E.CƏFƏRLİ**





Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Sadələşdirilmiş vergi ödəyicisinin vergi tətbiq olunmayan gəlirləri

**Əvvəli ötən sayımızda**

Sadələşdirilmiş vergi ödəyicisi müxtəlif istiqamətlərdən pul və ya əşya əldə edə bilər, lakin hər əldə edilən vəsait vergitutma obyekti kimi qəbul edilməyə bilər. Məsələn, avans kimi daxil olan vəsait mal, iş və ya xidmət müvafiq sənəd əsasında təqdim edilməyənədək «əldə edilmiş» anlayışına mənaca uyğun gəlmir.

Ümumiyyətlə, Vergi Məcəlləsində sadələşdirilmiş vergidən azadolmalar maddəsi nəzərdə tutulmamışdır. Məcəllədə belə bir maddənin nəzərdə tutulmaması sadələşdirilmiş vergidən azad olan gəlirlərin olmaması anlamına gəlməməlidir. Audit zamanı taktika belədir ki, sadələşdirilmiş vergitutma obyektinə aid edilməyən əməliyyatları və ya daxilolmaları (əldə etmələri) bilməklə vergiyə cəlb olunanları müəyyənləşdirmək lazımdır.

Məsələn, sadələşdirilmiş vergi ödəyicisinin aşağıdakı daxilolmaları (gəlirləri və ya əldə etmələri) vergitutma obyektinə və satışdankənar gəlirlərə aid edilmədiyinə görə, həmin daxilolmalara Vergi Məcəlləsinin 220.1-ci maddəsi üzrə sadələşdirilmiş vergi dərəcələri tətbiq edilmir (aşağıda sadalananlar davam edə bilər):

- Gələcəkdə təqdim ediləcək mallara (işlərə, xidmətlərə) görə əvvəlcədən alınmış avans məbləğlər.
- Borc kimi (faizlə və ya faizsiz qaytarılmaq şərti ilə) daxil olan vəsaitlər, həmçinin qaytarılmaq şərtilə təsisçidən alınmış pul vəsaitləri.
- Təsisçidən təsis payı kimi daxil olan vəsaitlər.
- Əmlakın qiymətləndirilməsindən yaranan müsbət məbləğ fərqi.
- Müqavilədə nəzərdə tutulan məqsədlərə xərclənməklə pul və ya natura formasında alınmış qrant vəsaitləri.
- Əvəzsiz verilmiş malların (işlərin, xidmətlərin) dəyəri, çünki təqdim olunmuş mallar üzrə hər hansı vəsait əldə olunmayacaqdır.
- Vergi ödəyicisinin əmlakın icarəyə verilməsi və royalti gəlirləri üzrə əməliyyatlarından əldə edilmiş vəsaitlər.
- Aksizli mallar istehsal edən vergi ödəyicisinin bütün gəlirləri.
- Kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardların bütün gəlirləri.
- Qeyri-dövlət pensiya fondlarının bütün gəlirləri.
- Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş təbii inhisar subyektlərinin bütün gəlirləri;
- Mükiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (bu Məcəllənin 218.1.1-ci maddəsində göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri bir milyon manatdan artıq olan vergi ödəyicilərinin bütün gəlirləri.
- Vergi ödəyicisinin avtomobil nəqliyyatı vasitələri ilə Azərbaycan Respublikası ərazisində sərnişin və yük daşımaları üzrə göstərdiyi xidmətlərdən əldə etdiyi vəsaitləri, çunki bu əməliyyatlar üzrə başqa metodla sadələşdirilmiş vergiyə cəlb olunurlar.
- Vergi ödəyicisinin mənzil tikintisi üzrə gördüyü işlərdən əldə etdiyi vəsaitləri, çunki bu əməliyyatlar üzrə başqa metodla sadələşdirilmiş vergiyə cəlb olunurlar.

# E-hökumət portalına qoşulmağa dair texniki tələblər təsdiq edilib

Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş «İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin «Elektron hökumət» portalına qoşulması üçün texniki tələblər»ə görə, portal iştirakçısının informasiya sistemlərinin və ehtiyatlarının portalla əlaqəsi təhlükəsizlik serveri, uyğunlaşdırma serveri, istifadəçi interfeysi, lokal monitorinq stansiyası komponentlərindən təşkil olunur.

Təhlükəsizlik serveri portal üzərindən aparılan məlumat mübadiləsində vasitəçiliyi həyata keçirməklə göndərilən məlumatların imzalanmasını və alınan məlumatların imzalarının yoxlanılmasını, onun vasitəsilə ötürülən məlumatların arxivləşdirilməsini, sorğu verən tərəfin xidmətdən istifadə hüququnun yoxlanılmasını və icazəsiz girişin bloklanmasını, digər portal iştirakçılarının təhlükəsizlik serverləri ilə aparılan mübadilə məlumatlarının şifrələnmə vasitəsilə məxfiləşdirilməsini təmin etməlidir.

Portala qoşulma ilə bağlı inzibati prosedurlara görə, müraciət etmiş dövlət və ya qeyri-dövlət qurumunun informasiya sisteminin və informasiya ehtiyatının portala qoşulmasına, ondan istifadə etməsinə və informasiya sisteminin və informasiya ehtiyatının təhlükəsizliyinin təmin edilməsinə dair texniki və texnoloji imkanları 7 iş günü müddətində qanunvericiliyin tələblərinə uyğun qaydada yoxlanılır. Yoxlamanın nəticəsi müsbət olduqda, portalın operatoru ilə müraciət etmiş qurum arasında portala qoşulmağa dair müqavilə bağlanılır. Müqavilədə portalın iştirakçısı tərəfindən məlumat mübadiləsinin aparılmasına səlahiyyətli olan vəzifəli şəxslərin siyahısı, portalın iştirakçısının informasiya sistemi və informasiya ehtiyatından istifadə etməklə portal vasitəsilə təqdim etdiyi elektron xidmətlərin siyahısı, iştirakçının portal vasitəsilə istifadə etdiyi məlumatların siyahısı, təhlükəsizlik serverinə məsul şəxs haqqında məlumat, göndərilən elektron sorğuların strukturunun təsviri, ölkə qanunvericiliyi ilə əldə olunması məhdudlaşdırılan informasiyadan istifadə imkanı və qaydası, qarşılıqlı məlumat mübadiləsinin xüsusiyyətlərini əks etdirən əlavə müddəalar əks olunmalıdır.

Portalın iştirakçısı təşkilati cəhətdən ləğv edildikdə və onun hüquqi varisi olmadıqda, ona aid informasiya sistemi və ehtiyat portaldan ayrılır. İştirakçı tərəfindən portalın fəaliyyətini ləngidəcək, ona zərər vura biləcək və ya onun fəaliyyətinin dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verildikdə, informasiya təhlükəsizliyinə və ya fərdi məlumatların mühafizəsinə dair tələblər portalın iştirakçısı tərəfindən pozulduqda iştirakçının fəaliyyəti dayandırılır.

Portala qoşulmuş informasiya sistemi SOAP (Simple Object Access Protocol) vasitəsilə sorğularla işləmə imkanına malik olmalıdır. Sorğuların həcmi 10 kilobaytdan artıq olmamalıdır. Sorğunun sistemdən cavablandırılma vaxtı verilənlər bazasında xidmətin emalına və şəbəkə ilə məlumatların ötürülməsinə sərf edilmiş vaxt nəzərə alınmadan 2 saniyədən artıq olmamalıdır. Təhlükəsizlik serveri saniyədə 60 sorğunun emalını təmin etməlidir. Məlumatların ötürülməsində 1qiqabit/saniyədən az olmayan ötürmə sürətini dəstəkləyən L2 və daha yüksək səviyyəli şəbəkə avadanlığı istifadə edilməlidir.

İştirakçının portala müraciəti zamanı təhlükəsizliyin təmin edilməsi məqsədi ilə portalın operatoru tərəfindən verilmiş sertifikat əsasında autentifikasiya tətbiq olunmalıdır. Autentifikasiya gücləndirilmiş elektron imza sertifikatı, portalın operatoru tərəfindən istifadəçilərə verilən identifikasiya vasitələri, mobil autentifikasiya sertifikatı və ya QR (Quick Response Code) kodunun oxunması vasitələrdən biri ilə həyata keçirilməlidir.

**AYTƏN**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ** *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Mühasibat balansını sadə şəkildə aşağıdakı kimi də tərtib etmək olar:

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Mühasibat balansı**
***«31» yanvar 2014-cü il tarixinə***

| Göstəricilər | Qeydlər | 31.01. 2014 | 31.12. 2013 |
|---|---|---|---|
| **I. AKTİVLƏR** | | | |
| Torpaq, tikili və avadanlıqlar | | 72500 | 20000 |
| Ehtiyatlat | | 145650 | 34000 |
| Qısamüddətli debitor borcları | | 103400 | 40000 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 88780 | 27000 |
| **Cəmi aktivlər** | | **410330** | **121000** |
| **II. KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | | 70000 | 40000 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 37376 | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | 80000 | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | 12444 | 400 |
| Qısamüddətli kreditor borcları | | 210510 | 80600 |
| **Cəmi kapital və öhdəliklər** | | **410330** | **121000** |

Bizim misal üzrə mühasibat balansının tərtib olunması aşağıda göstərilən qaydada həyata keçirilmişdir:

1. Əvvəlcə sınaq balansının aktivlər, kapital və öhdəliklərə aid hesablar üzrə göstəriciləri mühasibat balansının müvafiq maddələri üzrə sətirlərə köçürülür. Bu halda hələlik mühasibat balansı üzrə bərabərlik alınmayacaqdır. Çünki sınaq balansının gəlirlər və xərclərə aid hesablar üzrə göstəriciləri hələ mühasibat balansına köçürülməmişdir. Gəlirlər və xərclərə aid hesablar üzrə göstəricilərin mühasibat balansına köçürülməsini təmin etmək üçün mənfəət və zərər haqqında hesabata nəzər yetirmək lazımdır, çünki gəlirlər və xərclərə aid hesablar üzrə göstəricilər mənfəət və zərər haqqında hesabata köçürülmüşdür.

2. Sınaq balansının gəlirlər və xərclərə aid hesablar üzrə göstəriciləri mənfəət və zərər haqqında hesabatın müvafiq maddələri üzrə sətirlərinə köçürüldüyünə görə, bu hesabatın son nəticə göstəricisi olan (gəlirlər və xərclərin qarşılığından yaranan) 37376 manat «hesabat dövrünün xalis mənfəəti» göstəricisi mühasibat balansının 34-cü maddəsi üzrə «Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)» sətrinə köçürülür.

3. Mənfəət və zərər haqqında hesabatın 9344 manat «mənfəət vergisi» göstəricisi mühasibat balansının 52-ci maddəsi üzrə «Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər» sətrinə köçürülür, daha doğrusu, mühasibat balansının 52-ci maddəsi üzrə sətrində əks etdirilməli olan məbləğ sınaq balansından mühasibat balansının 52-ci maddəsi üzrə sətrinə köçürülməli olan öhdəlik hesabların (bizim misalda 522 №-li hesabın) məbləğləri ilə mənfəət və zərər haqqında hesabatın 9344 manat «mənfəət vergisi» göstəricisi cəmindən ibarət olacaqdır. Başqa cür desək, 9344 manat məbləğ sınaq balansından mühasibat balansının 52-ci maddəsi üzrə sətrinə köçürülməli olan öhdəlik məbləğlərinin (3100 manatın) üzərinə əlavə edilir.

Nəhayət, 37376 manat «hesabat dövrünün xalis mənfəəti» göstəricisi və 9344 manat «mənfəət vergisi» göstəricisi mühasibat balansına köçürüldükdən sonra balans bərabərliyi (aktivlər = kapital + öhdəliklər) alınacaqdır. Çünki 37376 manat və 9344 manat, cəmi 46720 manat məbləğ sınaq balansında gəlir hesabları üzrə məbləğlərlə xərc hesabları üzrə məbləğlərin fərqinə bərabərdir ((383400 - (273350 + 35560 + 15110 + 12660)).

*Maliyyə bərabərliyinin döğruluğunu yoxlayaq:*

Aktivlər = Kapital + Öhdəliklər
410330 = 107376 + 302954

vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | **4** |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | **11** |
| 12 | 13 | 14 | **15** | 16 | 17 | **18** |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | **25** |
| 26 | 27 | **28** | 29 | 30 | 31 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 may - «(5)» və «6».
20 may - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayınınn 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidirlər.

vergi cinayatlari

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

«Plan İnşaat və Ticarət» Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) direktoru İlham Məmmədov bu vəzifəyə Bakı şəhərindəki çayxanaların birində çalışan Nuran Mahmudov adlı tanışının vasitəsilə rəhbər təyin olunub. «Plan İnşaat və Ticarət» MMC-nin fəaliyyəti kifayət qədər geniş sahələri əhatə edib. Sahibkar spirtli içkilərin, müxtəlif adda pivə məhsulları - «Xırdalan», «Baltika» və «Exsport»un satışından tutmuş şəkər tozu, buğda unu, «Qax» mineral suları, armatur, taxta, sement və s. malların satışı ilə məşğul olub. Lakin İ.Məmmədov təyin olunduğu ilk günlərdən MMC-nin işinə haram qatıb. İlk qanunsuz addımlardan biri müəssisənin sənədlərinin Nuran Mahmudovun adına keçirilməsi olub. Bundan sonra saxta mühasibat sənədləri tərtib edilib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları tərəfindən sahibkarın yol verdiyi qanunsuzluqlarla bağlı müvafiq sənəd tərtib olunub və cinayət işi açılıb. Məlum olub ki, sahibkar İ.Məmmədov Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.6, 16.1.7, 72, 78.1, 177.1.3, 180.1-ci maddələrinin tələblərini pozaraq, vergi orqanına bəyannamə təqdim etməyib, 55.006 manat məbləğində əlavə dəyər vergisini dövlət büdcəsinə ödəməkdən yayınıb.

Onun barəsində Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə cinayət işi açılıb. Vəziyyətin pisləşdiyini görən sahibkar törətdikləri qanunsuzluqları boynundan atmaq üçün sənəddə adı rəhbər kimi göstərilən Nuranı günahlandırmağa çalışıb. Lakin istintaq hərəkətləri zamanı onun bu əməlləri ifşa olunub.

İş üzrə şahid qismində dindirilən Nuran Mahmudov ifadəsində bildirib ki, o, İ. Məmmədova kömək etmək məqsədilə öz adının təsis sənədində «Plan İnşaat və Ticarət» MMC-nin rəhbəri kimi göstərilməsinə razılıq verib, amma onun sonrakı proseslərdən: mühasibat, alqı-satqı, xidmət və digər əməliyyatlardan xəbəri yoxdur. Ümumiyyətlə,onun müəssisənin fəaliyyətində heç bir iştirakı olmayıb və bunu MMC ilə tərəfdaşlıq edən müəssisələrin rəhbərləri də şahid ifadələri ilə təsdiq ediblər. N.Mahmudovla üzləşdirilərkən İ.Məmmədov baş verənlərdə tamamilə özünün günahkar olduğunu boynuna alıb.

Binəqədi Rayon Məhkəməsinin hökmü ilə İlham Məmmədov öz qanunsuz əməlinin haqlı cəzasını alıb - 4 il azadlıqdan məhrum edilib.

**ELBRUS**

beynəlxalq panoram

# Qazaxıstanda investorlara vergi güzəşti tətbiq ediləcək

***Hazırda Qazaxıstanda investorları korporativ gəlir vergisini ödəməkdən 10 il müddətinə azad edən qanunun qəbul olunmasına hazırlıq görülür. Qazaxıstan hökuməti bu yolla ölkə iqtisadiyyatının daha dinamik inkişafına kömək edən yeni investorları cəlb etmək niyyətindədir.***

Hökumət investorları korporativ gəlir vergisindən azad etməklə yanaşı, investisiya subsidiyaları tətbiq etmək barədə də müzakirələr aparır. Ölkə prezidenti Qazaxıstanda işləyən əcnəbilər üçün əlverişli şərait yaratmağın tərəfdarıdır. İnvestorlarla aparılan işdə vahid pəncərə prinsipinin tətbiq olunması ilə investorların fəaliyyətə başlaması xeyli sadələşəcək, onların müxtəlif təşkilatlara müraciət etmək tələbləri aradan qaldırılacaq.

Yaxın gələcəkdə ölkədə investisiya ombudsmeni təsisatının yaradılacağı da planlaşdırılır. Dövlət başçısı cari ildə iqtisadi artım göstəricilərinin əhəmiyyətli dərəcədə yaxşılaşmasını və bunun hesabına ölkə əhalisinin həyat səviyyəsinin yüksəlməsini istəyir. O, öz ölkəsini Asiya bazarının ayrılmaz hissəsinə çevirməyi planlaşdırır.

İnvestorların güzəştlərdən nə vaxt istifadə edə biləcəyi hələlik məlum deyil. Ancaq ölkədə bu münasibətləri tənzimləyən normativ bazanın qısa müddətdə yeniləşdirilməsi nəzərdə tutulur.



# Misirdə zənginlər xüsusi vergi ödəyəcəklər

***Ölkə hakimiyyəti zəngin vətəndaşlara illik məcmu qazanclarının 5%-i həcmində yeni vergi tətbiq etməyə hazırlaşır. «Reuters»in məlumatına görə, bu vergi ildə 142 min dollardan artıq qazanan Misir milyonçularına aid olacaq.***

Bu fiskal qərarı hazırda Misir prezidenti vəzifəsini icra edən Ədli Mənsur təsdiqləməlidir. Bundan sonra vergi qanuni qüvvəyə minəcək və məhdud dövr ərzində, başqa sözlə, dövlət iqtisadi vəziyyəti qaydaya salınadək tutulacaq.

Misir hökumətinin nümayəndəsinin bildirdiyinə görə, bu vergidən əldə edilən vəsait təhsil, səhiyyə və tibb sahələrində müxtəlif növ sosial layihələrin maliyyələşdirilməsinə, habelə mənzil tikintisi üçün infrastruktur şəbəkəsinin yaradılmasına istifadə olunacaq.

# İsraildə televiziya vergisi ləğv olunacaq

*İsrail ərazisində teleyayım islahatlarına dair qanun layihəsi hökumətə təqdim edilib.*

Layihəyə görə, 2015-ci ildən Radio və Televiziya Yayımı İdarəsi ləğv edilir və televiziya vergisi aradan qaldırılır. Erdan bildirib ki, adı çəkilən idarənin parçalanma prosesi «son bir neçə ildir ki, davam edir». İdarənin varisi dövlət radio-televiziya yayımının öz aktuallığının və münasibliyinin bərpa edilməsinə diqqət yetirməlidir.



Xarici ölkələrin təcrübəsi:

# Türkiyə Respublikasının vergi sistemi: fiziki şəxslərin gəlir vergisi

Fiziki şəxslər proqressiv gəlir vergisinin ödəyiciləridir. Rezident fiziki şəxslər bütün dünya üzrə əldə etdikləri gəlirlər, qeyri-rezident fiziki şəxslər isə yalnız Türkiyə mənbəyindən gəlirləri üzrə məhdudlaşdırılmış vergi öhdəliyi daşıyırlar. Ailədə ər və arvad bütün növ gəlirləri üzrə ayrılıqda vergiyə cəlb olunur. Tam və məhdud ortaqlıqlar vergitutma məqsədləri üçün ayrıca şəxslər hesab edilir. Aşağıdakı fiziki şəxslər Türkiyə rezidenti hesab olunurlar:

- Mülki Məcəlləyə əsasən daimi yaşayış yeri Türkiyədə olanlar;
- Təqvim ilində ardıcıl olaraq 6 aydan artıq müddət ərzində Türkiyə ərazisində olan.

Gəlir vergisi sistemində fiziki şəxslərin gəliri yeddi kateqoriyaya bölünür:

1) Sahibkarlıq fəaliyyətindən gəlir
2) Kənd təsərrüfatından gəlir
3) Muzdlu işdən gəlir
4) Peşə fəaliyyətindən gəlir
5) Daşınmaz əmlakdan gəlir
6) Daşınan əmlakdan gəlir
7) Digər gəlirlər (kapital gəlirləri və müvəqqəti (dövri) gəlirlər).

Yaşayış sahəsinin sahibi həmin yaşayış sahəsinin icarəsindən gəlir hesab oluna biləcək hər hansı gəliri üzrə vergitutma subyekti deyildir.

Muzdlu işdən əldə olunan gəlirə hesablanmış verginin məbləğini yaşayış minimumu güzəşti qədər azaltmaq imkanı verilir. Yaşayış minimumu güzəştinin baza məbləği minimum əmək haqqı məbləğinin 50%-i həcmində müəyyən edilir. Bundan əlavə, yaşayış minimumu güzəşti işləməyən və gəliri olmayan həyat yoldaşına görə minimum əməkhaqqının 10%-i, ilk iki uşağın hər birinə görə minimum əməkhaqqının 7,5%-i və hər növbəti uşağa görə minimum əməkhaqqının 5%-i həcmində artırılır. Yaşayış minimumu güzəştinin 15%-i həcmində məbləğ hesablanmış gəlir vergisinin məbləğindən çıxılır.

Hər kateqoriya üzrə gəlir ayrılıqda hesablanır və vergiyə cəlb olunan gəlirin yekun hesablanması üçün cəmlənir. Kapital gəlirləri istisna olmaqla, bir kateqoriya üzrə zərər, digər kateqoriya üzrə gəlirdən çıxıla bilər. Zərər tam olaraq çıxıla bilmirsə, qalan hissə 5 il müddətə gələcək dövrlərə keçirilir. Zərərin geri çəkilməsi mümkün deyil.

Rezident işəgötürənlər əməkhaqqından gəlir vergisini ümumi dərəcələrlə hesablayıb ödəmə mənbəyində tutmağa borcludurlar. Bu, yekun vergidir və belə gəlirə görə bəyannamə təqdim edilməli deyil.

Rezident müəssisələrin rezident və qeyri-rezident fiziki şəxslərə ödədikləri dividendlər ödəmə mənbəyində 15% dərəcə ilə vergiyə cəlb olunur.

Repo (geriyə satınalma) əməliyyatlarından əldə edilən gəlir 15% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb edilir.

| Məbləğ | Dərəcə |
|---|---|
| 0 - 11000 TL *(~5 060 ABŞ dolları)* | 15 |
| 11000 - 27 000 TL *(~5 060 - 12 420 ABŞ dolları)* | 20 |
| 27 000 - 60 000 TL *(~12 420 - 27 600 ABŞ dolları)* (Muzdlu işdən gəlir üçün 27 000 - 97 000 TL *(~12 420 - 44 620 ABŞ dolları)*) | 27 |
| 60 000 TL yuxarı məbləğin 60 000 TL-sinə görə 13 760 TL *(~6 330 ABŞ dolları)* (Muzdlu işdən gəlir üçün 97 000 TL-dən yuxarı məbləğin 97 000 TLS-sinə görə 23 750 TL *(~10 925 ABŞ dolları)*), daha artığı | 35 |

Rezident fiziki şəxslərin, rezident müəssisələr tərəfindən xaricdə buraxılan obliqasiyalardan əldə edilən faiz gəliri və depozit hesabları, faizsiz borclardan qazanılan mənfəət payları, mənfəət/zərər ortaqlığı şəhadətnamələri üzrə alınan mənfəət paylarına münasibətdə müəssisələrə tətbiq edilən dərəcələr tətbiq edilir.

Fiziki şəxslər üçün vergi dövrü təqvim ili hesab olunur.

Sahibkarlıq və peşə fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər illik vergi bəyannaməsi təqdim etməlidirlər. Digər fiziki şəxslərdən, illik gəlirlərinin 26000 TL-dən aşağı olduğu və verginin ödəmə mənbəyində tutulduğu halda, vergi bəyannaməsi təqdim etmək tələb olunmur. Bəyan edilməli gəlir yalnız sadə metod əsasında hesablanmış sahibkarlıq fəaliyyətindən gəlirdən ibarətdirsə, vergi bəyannaməsi növbəti ilin fevral ayının 25-dək təqdim edilməlidir. Bütün digər hallarda bəyannamə növbəti il martın 25-dək təqdim edilməlidir.

Sahibkarlıq və peşə fəaliyyəti həyata keçirən vergi ödəyiciləri cari il ərzində gəlir vergisinin rüblük avans ödənişlərini etməlidirlər. Hər ödəniş rüb ərzində faktiki gəlirin 15%-ni təşkil edir. Rüb ərzində ödəmə mənbəyində tutulmuş istənilən vergi avans ödənişindən çıxıla bilər. Rüblük avans ödənişlərinin cəmi cari ilin vergi öhdəliyindən çıxılır. Artıq ödənilmiş məbləğ digər vergi borcları və ya növbəti ilin avans ödənişlərinə aid edilir və bundan sonra qalan məbləğ vergi ödəyicisinə qaytarılır.

***Xüsusi istehlak vergisi***

Lüks malların və lüks avtomobillərin təqdim edilməsi və icarəsi xüsusi istehlak vergisinə cəlb edilir. Lüks mallara bu vergi 20% dərəcə ilə tətbiq edilir. Avtomobillərə bu vergi mühərrikin həcmindən asılı olaraq, 10-83% dərəcə ilə tətbiq edilir. Xüsusi istehlak vergisi yalnız bir dəfə, idxal edildiyi zaman idxalçıdan və ya ilkin satış zamanı istehsalçıdan tutulur. Bu zaman xüsusi istehlak vergisi ƏDV tutulan əməliyyatın dəyərinə daxil edilir.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord




**Yuxarıdan aşağı:** 1.Müəyyən vaxt ərzində kompüter şəbəkəsi ilə ötürülən informasiyanın həcmi; 2.Yağ, zülal, B1, B2, C və D vitaminlərlə zəngin və diabet xəstəliyi olanlar üçün faydalı olan dəfnəkimilər fəsiləsinə aid bitki cinsi; 3.Hər hansı mətnin bir xətdə yazılmış hissəsi, yazı sırası; 4.Əks-səda prinsipinə əsaslanaraq obyekti aşkar edən və ona qədər olan məsafəni ölçən qurğu; 5.Fransanın cənub-qərbində şəhər, qırmızı şərab növü; 6.Üç üzv və ya hissənin birliyi; 9.Kiçik və ya orta həcmdə olan, bir çox elmi sahəyə müraciət olunan janr (oçerk); 13.Qırtıckimilər fəsiləsinə aid bitki cinsi; 15.Amerika və Uzaq Şərq ölkələrində çox məşhur olan idman növü; 16.XVI əsrdə yaşamış Osmanlı divan şairi; 17.«O olmasın, bu olsun» filmində (1956) Məşədi İbad obrazını canlandıran Azərbaycan teatr və kino aktyorunun adı; 18.Müxtəlif ölkələrin silahlı qüvvələrinin hərbi dəniz donanmalarında kiçik hərbi rütbə; 20.Tarixi Azərbaycan ərazisində, Urmiya gölünün sahilində yazılı mənbələrdə qeyd olunan ilk mərkəzləşdirilmiş dövlət; 21.Abşeron yarımadasında və onun ətraf zonasında əsən şimal küləyi.

**Soldan sağa:** 1.Xarici valyuta və ya qızılın bir ölkədən başqa ölkəyə köçürülməsi. Qiymətli kağızlara mülkiyyət hüququnun bir addan başqa ada keçirilməsi; 5.Minimal informasiya vahidi, ikili kod (0 və ya 1); 7.Kiril əlifbalı Azərbaycan orfoqrafiyasında saitdən sonra, samitdən əvvəl qoyulmaqla həmin saitin uzun tələffüz olunmasını göstərən hərfüstü işarə; 8.İtaliyada şəhər; 10.Azərbaycanda fəaliyyət göstərən özəl aviaşirkət; 11.Böyük Britaniyada şəhər. Məşhur universitet də şəhərin adını daşıyır; 12.Avtomobil markası; 14.Səsin «rəngi». Musiqi səsinin gurluğu, yüksəkliyi və notun uzunluğu ilə yanaşı, əlamətlərindən biri; 19.Nasir, ədəbiyyatşünas, publisist, yazıçı və ssenarist. «Dəli Kür» romanının müəllifinin adı; 21.Rusiyada çay; 22.Respublikamızda ictimai-siyasi qəzet; 23.Hind okeanında arxipelaq, Tanzaniyada muxtar əyalət; 24.Peyğəmbərlərdən biri; 25.Süsənkimilər fəsiləsinə aid bitki cinsi (gül).

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Adnalı; 2.İsrafil *(Məmmədov)*; 3.Tadya; 4.Friman *(Morqan)*; 5.Turne; 6.Komiks; 9.Dama; 13.Arat; 15.Traktat; 16.Üzeyir *(Hacıbəyov)*; 17.Tobaqo; 18.Skaner; 20.Reqbi; 21.Frida *(Kalo)*.
**Soldan sağa:** 1.Aristofan; 5.Tək; 7.Nurəddin *(Mehdixanlı)*; 8.Brom; 10.Luffa; 11.Arabesk; 12.«Almaz»; 14.Dante *(Aligyeri)*; 19.«Zerkalo»; 21.Frank; 22.Yoqa; 23.Pakistan; 24.RAİ; 25.Flomaster.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

idman

# «Tour d'Azerbaidjan-2014»ün təşkilatçılığına yüksək qiymət

*Avropa Velosipedçilər İttifaqının prezidenti David Lappartien Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2014» veloyürüşünün yüksək təşkilatçılığı və uğurla başa çatması münasibətilə Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Fazil Məmmədova məktub ünvanlamışdır.*

Məktubda deyilir: «Avropa Velosipedçilər İttifaqı adından Sizi «Tour d'Azerbaidjan-2014» veloyürüşünün yüksək təşkilatçılığı münasibətilə təbrik edirəm. Nəzərinizə çatdırmaq istəyirəm ki, qurumun baş katibi Enriko de la Kassa və onu müşayiət edən texniki komissiya xüsusən yarışın mayın 11-də paytaxt Bakıda keçirilən son mərhələsi ilə bağlı hazırladığı məruzəsində İçərişəhər marşrutu ilə bağlı xüsusi qeydlər etmiş və ən xoş təəssüratlarını bölüşmüşlər».

Qeyd olunmuşdur ki, texniki komissiya «Bakı-2015»in Təşkilat Komitəsi ilə məsləhətləşmələr apardıqdan sonra gələn il keçiriləcək ilk Avropa Oyunlarının marşrutu ilə bağlı ətraflı məruzə hazırlamışdır: ««Eurosport» kanalı ilə gördüklərimizə əsasən, Bakının həm müasirlik, həm də tarixilik baxımından gözəlliyinin bir daha şahidi olduq. Xüsusən İçərişəhər, Şirvanşahlar Sarayı və Qız Qalası Bakının çoxəsrlik tarixə malik olduğunun bir daha sübut edir».

D.Lappartien məktubunda vurğulamışdır: «Tour d'Azerbaidjan-2014» veloyürüşünün son mərhələsini «Bakı-2015» ilk Avropa Oyunlarının velosiped yarışlarının keçiriləcəyi yollar boyunca təşkili olduqca müsbət haldır və bütün iştirakçılar Bakını daha yaxından tanımaq imkanı qazanmışlar. Əminəm ki, 2015-ci ildə keçiriləcək ilk Avropa Oyunları ən yüksək səviyyədə təşkil olunacaq və iştirakçılar Bakıdan xoş təəssüratlarla ayrılacaqlar».



# Çempionlar turnirində 9 medal

*Türkiyənin İzmir şəhərində gənclər arasında güləş üzrə 17-ci Beynəlxalq çempionlar turniri keçirilmişdir. Turnirdə gənc qızlar və yunan-Roma güləşçilərimiz mübarizə aparmışlar. İdmançılarımız turniri 3 qızıl, 2 gümüş və 4 bürünc medalla başa vurmuşlar.*

Turnirinin ilk günündə mübarizəyə qoşulan gənc qızların yarışında Raqnetta Qurbanzadə (67 kq) qızıl, Solmaz Həşimzadə isə (55 kq) bürünc medal qazanmışdır.

Yunan-Roma güləşçilərinin mübarizəsində 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Ruhin Mikayılov bütün rəqiblərindən üstün olmuş və qızıl medal qazanmışdır. Ramiz Məmmədov (55 kq) isə bürünc medalla kifayətlənmişdir.

Turnirin ikinci günündə gənc qızların yarışında Almaz İsmayılova (51 kq) və Elmira Qəmbərova (63 kq) yalnız final görüşünü uduzmuş və gümüş medalla kifayətlənmişlər. Səbirə Əliyeva (72 kq) isə bürünc medala sahib olmuşdur.

Yunan-Roma güləşçilərinin mübarizəsində İslam Abbasov (84 kq) bütün rəqiblərindən üstün olmuş və fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Ən ağır çəkili pəhləvanların mübarizəsində isə Hacımurad Çöpsiyev (120 kq) bürünc medal qazanmışdır.

Beləliklə, 1 qızıl, 2 gümüş və 2 bürünc medal qazanan gənc qızlarımız komanda hesabında Türkiyə və Qazaxıstandan sonra üçüncü pillədə qərarlaşmışlar.

# «Qarabağ» çempionluğu qeyd etdi

*Mayın 17-də futbol üzrə Topaz Premyer Liqasının 2013/2014-cü il mövsümünə yekun vurulmuşdur. İki tur əvvəl çempionluğu təmin etmiş «Qarabağ» komandası sonuncu oyununu Tofiq Bəhramov adına Respublika stadionunda «Xəzər-Lənkəran»a qarşı keçirmişdir. Gərgin idman mübarizəsi şəraitində keçən oyun «Xəzər-Lənkəran»ın 2:1 hesablı qələbəsi ilə yekunlaşmışdır.*



Matç başa çatdıqdan sonra Azərbaycan çempionu «Qarabağ»a qızıl, «İnter»ə isə bürünc medallar təqdim olunmuşdur. Sonda Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev çempionluq kubokunu «Qarabağ»ın futbolçularına təqdim etmişdir.

Beləliklə, Azərbaycan futbolunun bugünkü lideri «Qarabağ» komandası Çempionlar Liqası yarışlarında iştirak etmək hüququ qazanmışdır. «İnter» gümüş, «Qəbələ» kollektivi isə bürünc medala sahib olmuşlar. Hər iki komanda ölkəmizi Avropa Liqası yarışlarında təmsil edəcəkdir.

Turnir cədvəlində sonuncu pillədə qərarlaşmış «Rəvan» komandası isə növbəti mövsümdə birinci divizionda mübarizə aparacaqdır.

mozaika

sağlam həyat tərzi

# Diabet riskindən qorunmaq üçün...

*Hər yeməkdən sonra qısa müddətdə - 15 dəqiqə piyada gəzmək qan şəkəri səviyyəsinin aşağı düşməsinə yaxşı təsir göstərir, xüsusilə yaşlılarda diabet riskini ciddi şəkildə azaldır.*

Ümumiyyətlə, qandakı şəkərin səviyyəsinə nəzarət etmək üçün səhər və axşam yeməklərindən sonra 45 dəqiqəlik gəzinti faydalıdır. Yeməkdən sonra gəzintidə olmaq qlükozanın miqdarını salmağa kömək edir.

Yaşlılarda diyabet riski yüksək olur - insulin istehsalı azalır, qan şəkərinin səviyyəsi yüksəlir. Yeməkdən sonra yatmaq isə bu prosesi daha da təhrik edir, bədəndə insulin istehsalı azalır. Bu, 2-ci tip diabet üçün olduqca risklidir.

Qandakı şəkəri idarə etmək üçün fiziki məşğələlərin xüsusi əhəmiyyəti var. Şəkərli diabetdə fiziki fəaliyyət kompleks müalicə tədbirlərinə daxildir. O, qanda şəkərin səviyyəsinin enməsinə (hərəkətlərdən qabaq və sonra özünə nəzarət mütləqdir), xolesterin də daxil olmaqla lipidlərin qanda aşağı düşməsinə kömək edir, qan təzyiqini azaldır, qan dövranını və ürəyin fəaliyyətini yaxşılaşdırır.



Əgər fiziki hərəkətlərlə məşğul olmaq qərarına gəlmisinizsə, mütləq müalicə həkiminizlə məsləhətləşməlisiniz. Məsələ bundadır ki, fiziki fəaliyyətin miqdarı diabetdə bir neçə amildən: xəstənin yaşından, diabetin müddətindən, gedişindən, ağırlığından asılıdır. Fiziki fəaliyyətin miqdarı əhəmiyyətli dərəcədə ürək-damar sisteminin vəziyyəti ilə müəyyən edilir. Yaş artdıqca bu sistemin pozulma riski çoxalır. Fiziki fəaliyyətin uzunluğu və tezliyi insanın yaxşı təlim görməsindən də asılıdır; məşqləri həftədə 3 dəfə olmaqla 10-15 dəqiqədən başlamalı və tədricən həftədə 4-6 dəfə olmaqla müddətini 30 dəqiqəyə çatdırmaq lazımdır. Ahıl və qoca insanlar üçün fiziki fəaliyyətin ən yaxşısı həftədə 3 dəfə 15-30 dəqiqəlik piyada gəzinti, həmçinin elə hərəkətlər kompleksidir ki, bu zaman nəbz dəqiqədə 100-110 təşkil etsin. 1-ci tip şəkərli diabet xəstələrində, yaşlarının cavan olmaları ilə əlaqədar, fiziki fəaliyyət öz həcminə və intensivliyinə görə yaşlılarınkından çox olmalıdır. Bu, müalicənin vacib tərkib hissəsi olub şəkərli diabetin gecikmiş ağırlaşmalarının qarşısını almağa və ya onu ləngitməyə imkan verir.

tam ciddi

# Azərbaycandan sonra adı öz ölkəsində də «qara siyahı»ya düşdü

### Söhbət dünyada tanınmış opera ifaçısı Monserrat Kabalyedən gedir

*O, vergidən yayınmaqda şübhəli bilinərək cinayət məsuliyyətinə cəlb oluna bilər.*

Barselona Şəhər Prokurorluğunun iddiasına əsasən, 2010-cu ildə müğənni Moskva, Barselona və Cenevrədə bir sıra konsertlərdə iştirak edib, lakin İspaniya dövlət xəzinəsinə vergi ödəməmək məqsədilə müqavilələr offşor ərazidə - Andorrada yerləşən şirkət vasitəsilə bağlanıb.

Prokurorluğun iddiasında qeyd olunur ki, Kabalye Andorrada da qeydiyyatda olmasına baxmayaraq, əsasən Barselonada yaşayır, bu səbəbdən də gəlirlərinə dair vergi bəyannaməsini məhz İspaniyada təqdim etməlidir. Prokurorluq hesab edir ki, müğənni bu addımı İspaniya xəzinəsinə vergi ödəməkdən yayınmaq məqsədilə atıb. Məlumata görə, Kabalye dövlət xəzinəsinə 508 min avro məbləğində vergi ödəməlidir.

Qeyd edək ki, Kabalye Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinə rəsmi Bakının icazəsi olmadan səfər etdiyinə görə adı Xarici İşlər Nazirliyinin «qara siyahı»sına salınıb.



faydalı

# «Google» və «Yandex»in bilmədiyimiz funksiyaları

**Axtarış sistemləri internetdə işləməyin əsas elementlərindəndir. Onlar ilk baxışdan sadə təəssürat bağışlayır: axtardığını yazırsan və nəticəni əldə edirsən. Lakin əslində axtarış sistemləri bundan artığına qadirdir.**

♦ ***Kalkulyator***

Əgər siz hesab əməllərini daha sürətlə yerinə yetirmək istəyirsinizsə, sadəcə axtarış panelinə toplayıb-çıxmaq istədiyiniz rəqəmləri daxil edin. «Google» istənilən halda sizə cavabı təqdim edəcək, lakin cavab yazılış formasından asılı olaraq dəyişəcək. Əgər axtarış sistemində rəqəmləri sözlərlə yazsanız (məsələn, səkkiz yüz üstəgəl min), «Google» cavabı hərflərlə yazılmış formada təqdim edəcək.

Əgər toplama əməliyyatı «800+1000» formasında yazılsa, monitorda cavabın da əks olunduğu kalkulyator pəncərəsi açılacaq. Ortaya çıxan kalkulyatorun virtual düymələrinə vurmaqla istifadəçi digər hesablama əməliyyatlarını da apara bilər. Burada baza funksiyaları ilə yanaşı sinus, kosinus, kökaltı və s. kimi çətin əməliyyatlar da həyata keçirilə bilər.

Analoji funksiya «Yandex»də də var. Rusiya axtarış sisteminin kalkulyatoru daha sadədir, lakin o, həm rəqəm, həm də mətn formasında yazılan sorğuları cavablandırır.

♦ ***Ölçü konverteri***

Hər iki axtarış sistemində olan digər funksiya isə ölçü konverteridir. Əgər siz «Yandex»də «10 dyum neçə sm» sorğusu qeyd etsəniz, onda cavabın əks olunduğu interaktiv tablo meydana çıxır. Burada istifadəçi dərhal ölçü vahidlərini dəyişərək başqa hesablamalar da apara bilər.

«Yandex»dən fərqli olaraq «Google»un sorğuya cavabı sadə olsa da interaktiv deyil. Ölçü vahidlərini dəyişmək üçün istifadəçi axtarış panelində yeni sorğusunu bir daha yazmalı olacaq.

♦ ***İzahlı lüğət və tərcümə funksiyası***

«Google»da bu cür axtarışların təmin edilməsi ilə bağlı rahat funksiya var. Lazım olan sözü qeyd edin və ondan sonra «define» sözünü yazın. Bundan sonra axtarış nəticələrinin üzərində sözün qısa mənası açıqlanacaq. Bununla istifadəçi «Wikipedia» və digər saytlara daxil olmaqdan qurtular və nəticə etibarilə vaxtına qənaət edir.

Яндекс
Google

«Yandex»də isə izahlı lüğət yoxdur. Lakin orada istənilən sözü yazıb sonra onun sonuna «perevod» ifadəsini əlavə etsək, onda mətn tərcümələri vidceti açılır. Bundan sonra bu vidcetə istənilən sözü yazmaqla onu müxtəlif dillərə tərcümə etmək olar. Daxil etdiyiniz sözün tərcüməsi avtomatik verilir.

♦ ***Rəng sehrbazı***

«Yandex»in dizaynerlər üçün çox faydalı olan alətindən biri də rəng sehrbazıdır. Bu alət axtardığınız rəng haqqında istənilən məlumatı tez əldə etməyə imkan verir. Rənglərin adını rus (purpurnıy), ingilis (yellow) və hətta hex kod [#99ff99] vasitəsilə yazmaq olar . «Yandex» axtarış nəticələrini interaktiv palitra formasında təqdim edəcək, elə buradaca rəng çalarlarının öyrənilməsini davam etdirmək olar. Alət həm «RGB», həm də «HSY»da işləyə bilir.

Rəng sehrbazı sadə istifadəçilər üçün də maraqlıdır. Məsələn, tutaq ki, internet kataloqlarının birində hansısa mebel əşyasını bəyənmisiniz, lakin rəngi xoşunuza gəlmir. Rəng sehrbazının köməyi ilə seçdiyiniz əşyanın rəngini özünüz dəyişib necə göründüyünə baxa bilərsiniz.

Axtarış sistemlərinin az istifadə olunan funksiyaları bunlarla bitmir. Mövzunu davam etdirəcəyik.

**Müdriklər deyib ki...**

***«Kitabları yandırmaqdan daha böyük cinayətlər var, məsələn, onları oxumamaq»***

*Rey Bredberi (1920-2012)*

